RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 72 (8388) CÜMƏ, 17 aprel 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# 2020-ci il çox dərin və geniş islahatlar ili olacaq

## Prezident İlham Əliyev qlobal böhran dövründə də Azərbaycanın demokratik inkişaf istiqamətində önəmli addımlar atılacağını bəyan etdi

### 3 ayın iqtisadi inkişaf göstəriciləri müsbətdir

Bu, ölkəmizin birinci rübdəki sosial-iqtisadi göstəriciləridir. Koronavirusun yüksək sürətlə yayılaraq pandemiyaya çevrilməsi istisnasız olaraq dünya dövlətlərini, o cümlədən Azərbaycanı tədqiq olunmamış təhlükə ilə üz-üzə qoyduğu bir dövrdə bu nəticələri prinsip etibarilə müsbət qiymətləndirmək olar.

Çünki bu gün pandemiya iqtisadiyyatın bir çox sahələrini qeyri-müəyyən müddətdə iflic edib, qlobal istehlakı daraldıb, nəticədə dünya iqtisadiyyatına və ticarətinə ağır zərbə vurulub, qlobal iqtisadi böhranın ilkin əlamətləri yaranıb. Lakin qlobal böhrandan az itki ilə çıxmaq üçün qabaqlayıcı tədbirlər görən dövlətlər daxili makroiqtisadi sabitliyi qoruya biliblər. Yəni ilk rübdə iqtisadi sektorda uğurlar əldə edən ölkələr o qədər də çox deyil. Sevindirici haldır ki, uğur əldə edən dövlətlər sırasında Azərbaycan da var. Bunu iqtisadi göstəricilər də bir daha təsdiqləyir.

Prezident İlham Əliyevin sədrliyi ilə ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan müşavirədə dövlət başçısı da yanvar-mart aylarının sosial-iqtisadi göstəricilərini yüksək qiymətləndirib.

- *ümumi daxili məhsul 1,1 faiz artıb;*
- *qeyri-neft sektoru 3 faiz çoxalıb;*
- *qeyri-neft sənaye sektoru 23 faiz artıb;*
- *informasiya-kommunikasiya texnologiyaları 18 faiz yüksəlib;*
- *dağ-mədən sənayesi 12 faiz çoxalıb;*
- *kənd təsərrüfatı 3,7 faiz artıb;*
- *elektrik enerjisi, qaz-buxar istehsalı 17 faiz çoxalıb;*
- *yük daşımaları 7,2 faiz artıb;*
- *vergi və gömrük orqanlarından əlavə daxilolma 310 milyon manatdır;*
- *inflyasiya 3 faiz səviyyəsindədir;*
- *orta aylıq əməkhaqqı 28 faiz, orta pensiya 27 faiz artıb;*
- *orta pensiya 295 manat, yaşa görə pensiya isə 330 manata yaxındır;*
- *bank sektoruna 627 milyon manat səviyyəsində dəstək verilib.*

Çünki son 3 ayda həyata keçirilən siyasi-iqtisadi islahatlar sayəsində qeyri-neft sektorunun yüksəlişinə, infrastrukturun müasirləşdirilməsinə, neft amilindən asılılığın azaldılmasına, sahibkarlığın inkişafına və güclü insan kapitalının formalaşdırılmasına xidmət edən mühüm addımlar atılıb.

### Azərbaycan iqtisadi azadlıqlar indeksinə görə dünyada 44-cü yerdədir

Qarşıya qoyulan hədəflərdən biri də qeyri-neft məhsullarının ixrac coğrafiyasının genişlənməsi, xarici bazarlara "made in Azerbaijan" brendi ilə çıxarılan məhsulların çeşidinin çoxaldılmasıdır. Müsbət trend ondan ibarətdir ki, kənd təsərrüfatı məhsulları və ərzaq ixracı ötən ilin birinci rübü ilə müqayisədə 4 faiz artıb. Eyni dövrdə kənd təsərrüfatı məhsullarının və ərzağın idxalı 5 faiz azalıb. Müsbət haldır ki, ərzaq məhsullarında daxili istehlakla, o cümlədən idxalla ixrac arasında fərq xeyli azalıb.

Son vaxtlar aparılan islahatlar nəticəsində Azərbaycanda biznes mühiti böyük dərəcədə yaxşılaşıb. Bunu bir neçə mötəbər beynəlxalq təşkilat da qeyd edir. Prezident İlham Əliyev vurğulayıb ki, bu yaxınlarda məşhur "Heritage" Fondu da iqtisadi azadlıqlarla bağlı reytinq cədvəli tərtib edib və Azərbaycan iqtisadi azadlıqlar indeksinə görə dünyada 44-cü yerdədir. Bir il ərzində ölkəmiz 19 pillə yüksəlib. Bu da həqiqətən böyük nəticədir.

### 7 min köçkün, 1500 şəhid ailəsinə yeni mənzillər veriləcək

Azərbaycan Prezidentinin həyata keçirdiyi genişmiqyaslı sosial paketlər hər zaman əhalinin rifah halının yaxşılaşdırılmasına xidmət edib. Ötən il dövlət başçısının təqdim etdiyi 2 sosial paket 4,2 milyon nəfərin həyatına müsbət təsir göstərdi.

Bütün bunların nəticəsində orta aylıq əməkhaqqı 28 faiz, orta pensiya təqribən 27 faiz artıb. Dövlət başçısının söylədiyi kimi, artımlar onu göstərir ki, bu istiqamətdə müsbət işlər görülür: "İndi bizim orta aylıq əməkhaqqımız 712 manatdır, orta pensiya 295 manatdır. Yaşa görə pensiya isə 330 manata yaxındır. Yəni biz maaşları, pensiyaları ildən-ilə artırırıq. Əlbəttə ki, keçən il çox böyük artım olmuşdu, 4,2 milyon insan dövlət tərəfindən qəbul edilmiş proqramlardan yararlanıb".

*Ardı 5-ci səh.*

# MEHRİBAN ƏLİYEVA:

## "Qoy, xoş əməllərin sayı artsın!"



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində paylaşım edərək, Heydər Əliyev Fondu tərəfindən başlanılmış qanvermə aksiyasına könüllü qoşulanlara təşəkkürünü bildirib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Azərbaycan xalqının hər zaman birlik və həmrəylik nümayiş etdirərək bir-birinə kömək etməyə hazır olması, əl-ələ verərək çətinlik və sınaqlardan birlikdə üzüağ çıxması bizim ən gözəl xüsusiyyətlərimizdən biridir. İrsi qan xəstəliklərindən, xüsusilə də talassemiyadan əziyyət çəkən insanlara kömək məqsədilə Heydər Əliyev Fondu tərəfindən başlanılmış qanvermə aksiyasına könüllü olaraq çoxsaylı vətəndaşlarımızın qoşulması bunu bir daha göstərdi. Bu nəcib təşəbbüsə qoşulan hər kəsə dərin minnətdarlığımı bildirirəm. Hamıya möhkəm cansağlığı arzulayıram. Qoy, xoş əməllərin sayı artsın! Uca Tanrı sizi qorusun!"

# "Göstərdiyiniz qayğı və diqqətə görə Sizə səmimi-qəlbdən təşəkkür edirik"

## Vətəndaşların dövlət başçısına ünvanladıqları məktublarda minnətdarlıqla yanaşı, mövcud siyasi kursa sədaqət ifadə olunur

İlham Əliyevin siyasi kursunda insan amilinin prioritet təşkil etdiyini koronavirusla mübarizə çərçivəsində verilən qərarlar bir daha təsdiq etdi. Məsələ ondadır ki, son iki ayda Azərbaycan hökumətinin Prezidentin tapşırıq və göstərişləri ilə həyata keçirdiyi tədbirlər təkcə bu qlobal infeksiyanın yayılmasının qarşısının alınması və vətəndaşların təhlükəsizliyi deyil, həm də onların sosial rifahı ilə bağlı məsələləri əhatə etdi.

Bütün bunları layiqincə qiymətləndirən vətəndaşlarımızın İlham Əliyevə göndərdikləri təşəkkür məktublarının ardı-arası kəsilmir. Ağdam rayonunun Əfətli kəndindən **Şəmsəddin Əhmədov** dövlət başçısına məktubunda yazır: "Son bir neçə aydır ki, dünyanı bürüyən koronavirus pandemiyasına qarşı Sizin tərəfinizdən ölkəmizdə həyata keçirilən qətiyyətli tədbirlər biz, cəbhə kəndində mənfur düşmənlə üzüzə yaşayan vətəndaşlarımızı da ürəkdən sevindirir. Biz bu ağır günlərdə bir daha əmin olduq ki, Prezidentimiz, çox hörmətli İlham Əliyev cənabları hər zaman öz xalqının yanındadır.

Möhtərəm Prezidentimiz, bu çətin günlərdə xalqımıza dəstək olduğunuz üçün Ağdam gəncləri adından Sizə minnətdarlığımızı bildiririk".

İsmayıllı rayonundan **Əhmədağa Ələkbərov, Sevda Qasımova, Mətanət Abbasova, Humay Talıbova, Brilyand Mursalova** və **Çingiz Muradlı** da ölkə rəhbərinə məktub yazaraq təşəkkürlərini bildiriblər.

*Ardı 2-ci səh.*

## Qax rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qax rayonunun əhalisi 28701 nəfər olan 17 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 17 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə Azərbaycanın rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının qazılması üçün göstərilmiş vəsaitin 1,19 milyon (bir milyon bir yüz doxsan min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 aprel 2020-ci il*

## Heydər Əliyev Fondundan koronavirusla mübarizəyə dəstək

### "REACT-C19 layihəsi fondun hər zaman səhiyyəmizlə birgə olduğunu bir daha sübut edir"

2020-ci il başlayandan dünyanın demək olar ki, əsas müzakirə mövzusu koronavirusdur. Bir neçə aydır ki, bütün bəşəriyyət gözəgörünməz bu kiçik virusla mübarizəyə atılıb.

İndi bütün ölkələr, bütün insanlar qlobal pandemiyaya qarşı savaş açıb. Amma təəssüf ki, hələ də bu savaşda COVID-19 adlı bəla irəlidədir.

Hazırda dünyada koronavirusdan ölənlərin sayı 135 min nəfərə çatıb.

*Ardı 6-cı səh.*

## Zirvə toplantısı qlobal çağırışlara həmrəyliklə cavab verdi

Azərbaycan pandemiyanın tüğyan etdiyi çətin zamanda belə beynəlxalq fəaliyyətini davam etdirməklə bir daha sülhə, əmin-amanlığa və qardaşlığa sadiqliyini təsdiqləyir. Bütün sərhədlərin, hava və dəmir yollarının bağlandığı, əlaqələrin qırıldığı, dövlətlərin özlərinə qapandığı bir vaxtda Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirildi. Bu, onu sübut edir ki, Türk Şurası dostluq və qardaşlıq təməlləri əsasında qurulmuş və çətin məqamlarda təcili toplaşaraq ümumbəşəri çağırışlara cavab vermək və bu vəziyyətdən çıxış yollarını axtarıb tapmaq gücünə qadirdir.

Azərbaycan sədr ölkə kimi dünyada təşkilatın nüfuzunun daha çox artmasına, qarşılıqlı əməkdaşlığın ən yüksək mərhələyə çatdırılmasına çalışır. Burada onu da əlavə etmək lazımdır ki, Bakı son illər beynəlxalq əhəmiyyətli tədbirlərə, forumlara, konfranslara, supergüclərin diplomatik danışıqlarına evsahibliyi edən şəhər kimi artıq Şərqin Cenevrəsi titulunu qazanmışdır. Sonuncu Zirvə görüşünə 7 dövlət başçısının və Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorunun qatılması da tədbirin beynəlxalq əhəmiyyətinin vacibliyini büruzə verir. Prezident İlham Əliyev Türk Şurasının Zirvə toplantısının dövlət başçıları səviyyəsində COVID-19 pandemiyasına həsr olunmuş ilk beynəlxalq tədbir olduğunu qeyd etmiş və onu nümunəvi həmrəyliyin növbəti bariz təzahürü kimi dəyərləndirmişdir.

*Ardı 6-cı səh.*

- *Özünü, doğmalarını və dostlarını qorumaq:*
- *Koronavirusa qalib gəlmək üçün*

**EVDƏ QAL!** *Biz birlikdə güclüyük!*

# Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər

# “Göstərdiyiniz qayğı və diqqətə görə Sizə səmimi-qəlbdən təşəkkür edirik”

## Vətəndaşların dövlət başçısına ünvanladıqları məktublarda minnətdarlıqla yanaşı, mövcud siyasi kursa sədaqət ifadə olunur

*Əvvəli 1-ci səh.*

Bu gün bütün dünyanın birnömrəli bəlasına çevrilmiş koronavirus pandemiyasının bizim ölkədən də yan keçmədiyini bildirən məktub müəllifləri yazırlar: “Əminliklə deyə bilərik ki, Sizin uzaqgörən və düşünülmüş siyasətiniz bütün azərbaycanlıların dərin rəğbətini qazanmışdır. Qeyd etdiyiniz kimi, əgər vaxtında doğru və qətiyyətli addımlar atılmasaydı, əgər çox ciddi koordinasiya aparılmasaydı, bu gün Azərbaycanımız daha böyük problemlərlə üzləşə bilərdi. Necə ki, dünyanın güclü dövlətləri hesab edilən ölkələr bu gün pandemiya qarşısında acizliklərini etiraf etmək məcburiyyətində qalıblar. Bir rəhbər olaraq Azərbaycana, xalqımıza, ən kiçiyindən ən yaşlısına qədər bəslədiyiniz səmimiyyət və sevgi hissləri açıq-aydın duyulur”.

Məktubda Prezidentə xitabən qeyd olunur ki, “Biz birlikdə güclüyük!” deməklə xalqımızı bir yumruq halında birləşdirə bildiniz: “Elə bunun nəticəsidir ki, bu gün xalqımız həm özünü, həm də dövlətini düşünərək bir-birinə dəstək olur, tezliklə bu ümumbəşəri bəladan üzüağ, alnıaçıq çıxmaq yolunda səfərbər olub. Biz, İsmayıllı şəhər E.Məmmədov adına 3 nömrəli məktəb-liseyin pedaqoji kollektivi hər zaman olduğu kimi, Sizin bu sahədə də siyasətinizi dəstəkləyir və qürurla qeyd edirik ki, hər zaman Sizin yanınızdayıq. Azərbaycanımıza, xalqımıza verdiyiniz dəyərə, göstərdiyiniz qayğı və diqqətə görə Sizə səmimi-qəlbdən təşəkkür edirik”.



Masallının Xanalion kəndinin sakini **Mirəsgər Bağırzadə** təhsil işçisidir. Onun məktubunda deyilir: “Bildiyimiz kimi, koronavirus bəlası tibbin ən inkişaf etmiş ölkələrində belə can almaqda davam edir. Ölkəmizdə isə vəziyyətin Sizin nəzarətinizdə olması virusun sürətlə yayılmasının qarşısını almağa kömək edib. Respublikamızda vaxtında elan olunmuş karantin rejimi, dezinfeksiya işlərinin aparılması və digər təxirəsalınmaz tədbirlərin görülməsi bir daha onu göstərir ki, Siz həmişə xalqımızı düşünürsünüz. Sizin göstərişinizlə ölkədə tibbi maska çatışmazlığının da qarşısı alındı. Sumqayıt Kimya Sənaye Parkında tibbi maska istehsalı müəssisəsinin açılışı oldu və Siz açılışda şəxsən iştirak etdiniz”.

Mirəsgər Bağırzadə görülən işlərə görə Masallı rayonunun təhsil işçiləri, bütün müəllim və şagird kollektivləri adından Prezidentə təşəkkür edərək minnətdarlığını çatdırıb.

Ölkə ictimaiyyəti bu çətin günlərdə bir daha yanında öz liderini, onun qayğısını, dəstəyini gördü. Hər zaman olduğu kimi, Prezident İlham Əliyev xalqımızın və dövlətimizin bu qlobal təhlükədən alnıaçıq çıxması və insanların çətinlik çəkməməsi üçün nə lazımdırsa etdi. Ona görə də vətəndaşların məktublarının hər birində səmimi minnətdarlıqla yanaşı, xalqımızın milli həmrəyliyi və İlham Əliyev siyasətinə sədaqət ifadə olunur.

***“Azərbaycan”***

# “Siz hər bir azərbaycanlının Prezidentisiniz!”

## Azərbaycan ictimaiyyəti əmindir ki, İlham Əliyevin müdrikliyi və qayğıkeşliyi sayəsində dövlətimiz koronavirus probleminin öhdəsindən layiqincə gələcək

Artıq günlərdir ki, Prezident İlham Əliyevin ünvanına saysız-hesabsız təşəkkür məktubları gəlir. Respublikamızda koronavirusla mübarizə sahəsində atılan addımları, o cümlədən vətəndaşların sosial rifahının yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirləri böyük razılıqla qarşılayan vətəndaşlar ölkə başçısına minnətdarlıq edirlər. Məktubların bəzilərini təqdim edirik.

### “Prezidentimizin öz xalqının yanında olması qürurvericidir”

Hazırda koronavirus pandemiyası nəticəsində dünyada hər gün yüz minlərlə insanın xəstəliyə yoluxduğunu, minlərlə insanın bu xəstəlikdən dünyasını dəyişdiyini, müxtəlif şəkildə bu pandemiyadan maddi və mənəvi zərər gördüyünü məktubunda qeyd edən Bakının Nəsimi rayonunun sakini Sübhan Qaragözov yazır: “Bu çətin günlərdə biz bir daha şahidi olduq ki, dövlətimiz dünyada baş verən bütün prosesləri olduqca həssaslıqla izləyir və öz vətəndaşlarının pandemiyadan əziyyət çəkməmələri, zərərlərin ən minimum səviyyəyə endirilməsi üçün lazım olan bütün qabaqlayıcı və tənzimləyici tədbirləri vaxtında və qətiyyətlə həyata keçirir. Dünyanın aparıcı dövlətlərinin belə aciz qaldığı bu vəziyyətdə dövlətimizin, Prezidentimizin öz xalqının və vətəndaşlarının yanında olması, onların bütün mümkün problemlərinin həllinə çalışması doğrudan da təqdirəlayiqdir, sevindirici və qürurvericidir.

İstər xüsusi karantin rejimi çərçivəsində atılan qabaqlayıcı addımlar, istər sahibkarlara, işsizlərə və mövcud vəziyyətdən zərər çəkən digər şəxslərə dövlət dəstəyinin, maddi yardımın göstərilməsi, istərsə də xəstəliyə yoluxmuş və yoluxma riski olanların müalicəsi, qorunması baxımından Azərbaycan dünya dövlətlərinə nümunə olacaq bir model, bir yanaşma ortaya qoydu. Bütün bunlara görə Sizə dərin təşəkkürümüzü bildiririk, cənab Prezident!”

### “Diqqət və qayğıya görə Sizə və Mehriban xanıma minnətdarlığımızı bildiririk”

“Dünyanı bürüyən koronavirus pandemiyası bəşəriyyəti ölüm təhlükəsi ilə üz-üzə qoyub. Avropanın ən böyük dövlətləri bu virusla mübarizədə aciz durumdadır. Sizin uzaqgörən və düşünülmüş məqsədyönlü qərarlarınız, həyata keçirdiyiniz işlər sayəsində isə Azərbaycan bu virusa qarşı səmərəli mübarizə aparan ən qabaqcıl ölkələr sırasındadır”. Bunu isə Goranboyun Qarasüleymanlı kənd sakini Məhəmməd Həsənov yazır. Onun sözlərinə görə, məhz Prezidentin tapşırığı ilə Nazirlər Kabineti yanında Operativ Qərargahın yaradılması və ölkə ərazisində xüsusi karantin rejiminin elan edilməsi bu virusun yayılma təhlükəsinin, baş verə biləcək ağır fəsadların qarşısının alınması baxımından zəruri addım idi.

“Biz yaxşı bilirik ki, ölkəmizdə hər şey dövlətimizin, Sizlərin nəzarətindədir. Səhiyyə işçilərimiz və digər dövlət orqanları birgə fəaliyyət göstərərək bu ümumbəşəri bəlaya qarşı əzmlə mübarizə aparırlar. Goranboy rayonunda da bununla bağlı əməli tədbirlər, dezinfeksiya və maarifləndirmə işləri həyata keçirilir. Xalqımızın sağlamlığına göstərdiyiniz diqqət və qayğıya görə bütün goranboylular adından Sizə və Mehriban xanıma minnətdarlığımızı bildiririk.

Uca Allahın köməyi ilə xalqımız bu bəladan sağ-salamat qurtulacaq və bir Ali Baş Komandan kimi Sizin rəhbərliyinizlə biz milli qəhrəmanlar və bütün qəhrəman goranboylular birlikdə tezliklə Qarabağımızı erməni işğalçılarından azad edəcəyik”, -deyə o yazır.

Ağcabədi rayonunda Taxtakörpü qəsəbəsində məskunlaşan Laçın rayonundan məcburi köçkünlər - Xosrov Hüseynov, Fikrət Məmmədov və Eldəniz Məmmədov da dövlət başçısına təşəkkür məktubu ünvanlayıblar. Onlar yazırlar: “Dünya iqtisadiyyatı çətin günlər yaşayır. Azərbaycanın da bir çox çətinliklərlə üzləşdiyi bir vaxtda Laçın rayonundan olan məcburi köçkünlər üçün Ağcabədi rayonunun ərazisində 256 evdən ibarət qəsəbənin tikilib təhvil verilməsi Sizin bütün hallarda bizləri düşündüyünüzü göstərir. Bu günlərdə evlərin bizlərə verilməsinin böyük mənası var. Bu, Azərbaycan dövlətinin vətəndaşlarını heç bir halda darda qoymayacağını bir daha sübut edir.

Bununla yanaşı, məcburi köçkünlərin məskunlaşdığı ərazilərin dezinfeksiya edilməsi, aztəminatlı ailələrin yardımla təmin olunması xalqımızın əmin əllərdə olduğunu göstərir. Var olun, cənab Prezident!”

### “Bundan sonra da yürütdüyünüz siyasi kursa sadiq qalacağıq”

“Dünyanı bürüyən qorxunc koronavirus pandemiyası Azərbaycanda da müəyyən çətinliklər yaradır. Ancaq Azərbaycan xalqının xoşbəxtliyi ondadır ki, Sizin kimi ölkə başçısı var və həqiqətən də Siz hər bir azərbaycanlının Prezidentisiniz”.

Gəncə sakinləri Könül Vəliyeva, Eldəniz Bayramov, Nazim Vəliyev və Rauf Abbasovun məktubunda bu barədə deyilir. Məktubda daha sonra yazılır: “Virusun yayılmasının qarşısının alınması istiqamətində Sizin uzaqgörən və fədakar fəaliyyətiniz nəticəsində vaxtında mühüm əhəmiyyətli tədbirlər görüldü. Əminik ki, bu tədbirlər tezliklə öz bəhrəsini verəcəkdir. Əhalinin rifahını nəzərə alaraq sosial-iqtisadi sahələri əhatə edən proqramların həyata keçirilməsi Sizin həm səriştəli, həm qayğıkeş, həm də vətənpərvər bir rəhbər olduğunuzu bir daha bütün dünyaya sübut edir. İstər aztəminatlı ailələrə, istər yaşlılara, istərsə də sosial qayğıya ehtiyacı olan tələbələrə, ümumilikdə, bütün vətəndaşlara dəstəyiniz bir vətəndaş olaraq bizdə də ruh yüksəkliyi yaradır.

Son dövrlərdə verdiyiniz tövsiyə və tapşırıqlar bizim üçün bir mayakdır. Əmin olun ki, bundan sonra da yürütdüyünüz siyasi kursa sadiq qalacağıq. Sizin bu əzmkarlığınızı əsl qəhrəmanlıq kimi qiymətləndirir və məsuliyyətli işinizdə Sizə uğurlar arzu edirik”.

### “Siyasətinizin mərkəzində Azərbaycan vətəndaşı dayanır”

Biləsuvar rayonundan Mülazim Rzayev, Arzu Hüseynov və Ərzuman Bədəlov yazırlar: “Sizin müdrik və uzaqgörən siyasətiniz nəticəsində ölkəmizdə koronavirusun təsirinin azaldılması və miqyasının məhdudlaşdırılması istiqamətində mühüm addımlar atılıb, dövlətimiz bütün imkanlarını bu bəlanın qarşısının alınmasına və fəsadlarının aradan qaldırılmasına yönəldib. Buna Sizin uzun illərdən bəri ölkəmizdə səhiyyə sahəsində həyata keçirdiyiniz əsaslı islahatlar sayəsində nail olunub”.

Məktub müəllifləri bildirirlər ki, yeni səhiyyə ocaqlarının istifadəyə verilməsi, ölkəmizdə tibb işçilərinin peşəkarlığının artırılması öz bəhrəsini verdi: “İnanırıq ki, hamımızın birgə səyi nəticəsində koronavirus infeksiyasının az zərərlə aradan qaldırılmasına nail olacağıq. Bu çətin günlərdə Sizin çevik fəaliyyətiniz bir daha sübut etdi ki, yürütdüyünüz siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun rifahı dayanır. Bu fəaliyyətinizi alqışlayır və Sizə dərin minnətdarlığımızı bildiririk”.

### “Qayğınıza yorulmadan çalışmaqla cavab verəcəyik”

Füzuli rayonunun 5-ci Zobucuq qəsəbəsindən Cəmalə Məmmədova yazır: “Mən vətənpərvər Azərbaycan vətəndaşı və müəllimi olaraq öncə təhsil sahəsinə göstərilən qayğıya, həmçinin koronavirus infeksiyasına qarşı mübarizə tədbirləri çərçivəsində müəllimləri düşünərək əməkhaqqı ödənilməklə onların evdə qalmalarına şərait yaratdığınıza görə Sizə təşəkkür edirəm. Biz müəllimlər ev şəraitində olsaq da, gələcəyimiz olan uşaqların təhsildən yayınmamaları üçün əlimizdən gələni edəcək, Sizin qayğınıza yorulmadan çalışmaqla cavab verəcəyik. Bir daha Sizə dərin minnətdarlığımı çatdırır və uğurlar diləyirəm. Allah Sizi qorusun”.

Goranboy rayonunun Xan Qərvənd kənd sakini Niyaz Hacıyev yazır ki, bu gün dünya ölkələri qarşısında ciddi problemə çevrilmiş COVID-19 virusunun ölkəmizdə yayılmasının qarşısının alınması istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən davamlı, sistemli və kompleks tədbirlər sadə vətəndaşlar tərəfindən böyük minnətdarlıqla qarşılanır.

Məktubda deyilir: “İstər koronavirusun yayılmasının lokallaşdırılması ilə bağlı qabaqlayıcı tədbirlər, istər iqtisadiyyatın bu virusun təsirlərindən qorunması üçün atılan addımlar, istərsə də sahibkarlara, sosial baxımdan ehtiyacı olan insanlara dövlət dəstəyinin göstərilməsi və bütün bu işlərin həyata keçirilməsi istiqamətində dövlət qurumlarının sistemli fəaliyyəti vətəndaş olaraq bizim özgüvənimizi daha da artırır. Eyni zamanda Birinci vitse-prezidentimiz Mehriban Əliyevanın bu istiqamətdə fəaliyyətini, bir neçə gün əvvəl xalqımıza bir ana qayğısı ilə, sevgi və səmimiyyətlə müraciətini də qeyd etməyi özümə borc bilirəm. Bu gün mən və ailəm paytaxtdan 350 kilometr aralıda, özü də döyüş bölgəsi olan bir rayonda yaşayırıq. Verilən bütün qərarların ölkənin ən ucqarlarında belə icrası dövlət intizamının bariz nümunəsi və bunun nəticəsində biz sadə insanların dövlətə inamının daha da möhkəmlənməsidir.

Cənab Prezident, Siz xoş günlərdə də, çətin günlərdə də həmişə xalqımızın yanında, sadə insanların arxasında olmusunuz. Qoy, bu çətin yolda Allah da həmişə Sizin arxanızda dursun”.

### “Sizin vətənpərvərliyiniz hər birimiz üçün nümunədir”

Göyçay rayonunun Çayarxı kəndinin sakini Nəriman Paşayev yazır: “Hörmətli cənab Prezident, Siz istirahət etmədən xalqımızın qayğısına qalırsınız. Buna görə Sizə Göyçay rayonunun sakinləri adından dərin minnətdarlığımızı bildirirəm. Bir çox ölkələrdən fərqli olaraq koronavirus epidemiyasının ilk günlərindən qabaqlayıcı tədbirlərin görülməsi öz nəticəsini verdi. Sizin vətənpərvərliyiniz hər birimiz üçün nümunədir. Allahın izni ilə bu bəla tezliklə çəkilib gedəcək, respublikamız daha da inkişaf edəcək. Buna görə də xalq daim Sizin arxanızdadır. Bizim seçimimiz və gələcəyimiz Sizinlə bağlıdır. Ulu Tanrı Sizi və ailənizi qorusun!”

Bərdə rayonunun Şorəlli kəndində yaşayan Qarabağ müharibəsi veteranı, Ağdərə rayonundan məcburi köçkün Nazim Paşayevin məktubunda qeyd olunur ki, Prezident İlham Əliyevin vaxtında gördüyü tədbirlər və verdiyi tapşırıqlar sayəsində ölkəmizdə epidemiyanın qarşısının alınmasına nail olundu. “Keçmiş döyüşçü olaraq mən Sizi dövlətimizin həm Prezidenti, həm generalı, həm də sərhəddə, səngərdə məğrur dayanan bir əsgəri adlandırardım. Allah köməyiniz olsun. Sizin Azərbaycan xalqına göstərdiyiniz ata, qardaş qayğısı tarix boyu xatırlanacaq. Var olun, cənab Prezident! Biz döyüşdük, amma torpaqlarımızı, xalqımızı layiqincə qoruya bilmədik. Ancaq Siz xalqımızı böyük bəladan qorudunuz və qoruyursunuz. İnşallah, Allahın köməyi ilə Sizin sayənizdə biz bu bəladan üzüağ və minimum itki ilə çıxacağıq. Sizə uğurlar arzulayıram”, - deyə o yazır.

Prezident İlham Əliyevə təşəkkür məktubları ünvanlayan vətəndaşlarımız ölkəmizdə virusun yayılmasının qarşısının alınması istiqamətində görülən işləri, sosial-iqtisadi proqramları təqdir edirlər. Vətəndaşlarımız əmin olduqlarını bildirirlər ki, məhz Prezident İlham Əliyevin müdrikliyi və qayğıkeşliyi sayəsində dövlətimiz bu qlobal problemin öhdəsindən də layiqincə gələcək.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Sahibə QAFAROVA: “Milli Məclis Azərbaycan Prezidentinin qarşıya qoyduğu mühüm vəzifələri uğurla yerinə yetirməyə çalışacaq”

**Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.**

**- Sahibə xanım, bu, Milli Məclisin Sədri kimi sizinlə ilk müsahibəmizdir. Fürsətdən istifadə edib, sizi bir daha təbrik edir və uğurlar arzulayırıq.**

- Təşəkkür edirəm, sağ olun!

**- Bildiyimiz kimi, bu il fevral ayının 9-da Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilər keçirildi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev müxtəlif çıxış və nitqlərində bu seçkiləri Azərbaycanın demokratik inkişafı istiqamətində atılmış növbəti addım kimi dəyərləndirib. Seçkiləri izləyən beynəlxalq və yerli müşahidəçilərin mütləq əksəriyyəti də prosesi müsbət qiymətləndirib. Mövzunun aktuallığını nəzərə alaraq, sizin də bununla bağlı ümumi bir dəyərləndirmə aparmağınızı xahiş edirik.**

- Azərbaycanın demokratik inkişafı tarixində mühüm mərhələlərdən birini təşkil edən 9 fevral Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilər azad, şəffaf və ədalətli şəkildə keçirilmişdir. Azərbaycan xalqının, Azərbaycan seçicisinin iradəsi bu seçkilərin nəticəsində ifadə olunmuşdur. Rekord sayda - 1300 nəfərdən çox namizədin iştirak etdiyi prosesdə bütün namizədlərə bərabər imkanlar yaradılmış, onların seçicilərlə görüşləri, öz fikirlərini, düşüncələrini seçicilərə sərbəst çatdırmaları üçün hər cür şərait təmin edilmişdir.

Bununla yanaşı, Azərbaycan dövləti seçkiləri izləmək üçün bir çox beynəlxalq təşkilatları, müşahidəçiləri dəvət etmiş, çoxsaylı beynəlxalq müşahidəçilər seçki prosesinin bütün mərhələlərində müşahidə aparmışlar. Ümumilikdə, 880-dən artıq beynəlxalq müşahidəçi seçkiləri izləmişdir ki, onlar da 58 ölkəni və 59 beynəlxalq təşkilatı təmsil etmişlər. 200-ə yaxın xarici kütləvi informasiya vasitəsinin əməkdaşları prosesi müşahidə etmiş və geniş işıqlandırmışlar. 77 min 800-ə yaxın yerli müşahidəçi müvafiq seçki qurumlarında qeydiyyatdan keçərək müşahidə aparmışlar, 4 təşkilat “exit-poll” həyata keçirmişdir. Müşahidəçilərin mütləq əksəriyyətinin prosesi müsbət dəyərləndirməsi də bir daha bu gerçəkliyi ifadə edir ki, 9 fevral seçkiləri bütün demokratik meyarlara cavab vermişdir. Möhtərəm Prezidentimiz İlham Əliyev də bir çox çıxış və nitqlərində, o cümlədən altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasındakı geniş nitqində seçkilərlə bağlı fikirlərini bildirmiş, seçki prosesinin uğurla keçdiyini söyləmiş, seçkilərin nəticələrinin Azərbaycan xalqının iradəsini əks etdirdiyini qeyd etmişdir.

**- Yeri gəlmişkən, Prezident İlham Əliyev altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında söylədiyi nitqində parlamentin gələcək fəaliyyəti ilə bağlı çox mühüm mesajlar verdi. Aprelin 14-də keçirilən 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan müşavirədə də dövlət başçısı Milli Məclisdə islahatlar, parlamentdə baş verən dəyişikliklərlə bağlı təhlillər apardı. Bu mesajlar nədən ibarətdir və parlamentin qarşıdakı dövrdə fəaliyyətində hansı istiqamətlər prioritet olacaq?**

- Möhtərəm Prezidentimizin həm altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında söylədiyi nitqində, həm də aprelin 14-də keçirilən müşavirədə irəli sürdüyü dəyərli tövsiyələr bizim fəaliyyətimizin əsas istiqamətlərini müəyyənləşdirir və biz bunu “yol xəritəsi” olaraq qəbul edirik. Əlbəttə ki, Azərbaycan Respublikası Milli Məclisi bu böyük inamı və etimadı doğrultmağa, xalqımızın və ictimaiyyətin gözləntilərinə cavab vermək üçün daha səmərəli fəaliyyət göstərməyə, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışacaqdır. Bu vəzifələr, ilk növbədə, ondan ibarətdir ki, Milli Məclis qanunvericilik sahəsində müasir tələblərlə ayaqlaşan, ölkəmizin reallıqlarına və inkişaf dinamikasına əsaslanan, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən quruculuq işlərinin hüquqi bazasının möhkəmləndirilməsinə xidmət edən yeni qanunvericilik təşəbbüsləri ilə çıxış etsin. Həmçinin Azərbaycan üçün prioritet təşkil edən könüllülük hərəkatı, gənclərlə iş, informasiya təhlükəsizliyi, sosial-müdafiə və digər sahələrdə yeniləşən, müasirləşən ölkə həyatının standartlarına cavab verən qanunvericilik bazasının yaradılması istiqamətində addımlar atılmalı, qanun yaradıcılığında keyfiyyət tələbləri üstün tutulmalıdır. Yeri gəlmişkən, qeyd etmək istərdim ki, bu günə qədər altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin artıq beş iclası keçirilib ki, bu iclaslarda da 44 qanun və qərar qəbul olunub.

Milli Məclisin əsas fəaliyyət istiqamətlərindən biri də beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsidir. Məlumat üçün bildirim ki, Azərbaycan Respublikası Milli Məclisinin beynəlxalq əlaqələrinin genişləndirilməsi üzrə 82 dostluq qrupu, 11 beynəlxalq parlament təşkilatında nümayəndə heyətləri və iki ikitərəfli komissiya fəaliyyət göstərir. Parlamentimiz dövlətimizin xarici siyasətinin həyata keçirilməsinə bundan sonra da dəstək verəcək, beynəlxalq ikitərəfli və çoxtərəfli əlaqələrin inkişafına, beynəlxalq təmsilçilik məsələlərinə diqqəti daha da artıracaq. Xüsusilə parlament diplomatiyasının geniş imkanlarından faydalanaraq, möhtərəm Prezidentimizin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli istiqamətində apardığı ardıcıl və qətiyyətli siyasətə dəstək verəcəkdir. Həmçinin deputatlarımız seçicilərlə işin daha müasir və fəal əsaslarda qurulmasına, fəaliyyətlərində hesabatlılığa xüsusi diqqət yetirəcək, seçicilərlə sıx təmasda olacaqlar. Yəqin ki, müşahidə edirsiniz, demək olar ki, bütün deputatlarımız karantin rejiminə əməl etməklə, seçicilərlə onlayn görüşlər keçirir, müasir texnologiyalardan faydalanaraq onlarla ünsiyyət qururlar. Qarşıdakı dövrdə bu təmasların daha da sıxlaşacağını əminliklə söyləyə bilərik.

**- Sahibə xanım, son illərdə ölkəmizdə demək olar ki, həyatın bütün sahələrində genişmiqyaslı islahatlar reallaşdırılır. Bu islahatlar yeni mərhələdə ölkəmizin qarşısında duran çağırışlara müvəffəqiyyətlə uyğunlaşmaq, müasirləşmək məqsədlərinə xidmət edir. Siz bu islahatları necə qiymətləndirirsiniz?**

- Təbii ki, Azərbaycanda əldə olunan müsbət nəticələr, inkişaf göstəricilərinin davamlı olaraq yüksəlməsi, 2020-ci ilin ilk rübünün göstəriciləri həyata keçirilən uğurlu, düşünülmüş siyasətin, aparılan çoxşaxəli islahatların gündəlik həyatda öz təsdiqini tapmasını əks etdirir. Bu, bütün sahələrdə böyük nailiyyətlərin qazanılması və dayanıqlı inkişaf üçün etibarlı zəmin yaradır. Xüsusilə dərin islahatlar ili kimi xarakterizə olunan 2019-cu ildə reallaşdırılan genişmiqyaslı islahatlar ölkə və cəmiyyət həyatının bütün sahələrini əhatə etməklə respublikamızın qarşısında yeni inkişaf perspektivləri yaradıb. Ölkəmizdə makroiqtisadi sabitliyin qorunub saxlanılması, milli istehsalın və ixracın genişləndirilməsi, regional inkişaf proqramlarının uğurlu icrası və iqtisadi aktivlik coğrafiyasının regionlara doğru genişlənməsi, modern sənaye quruculuğu, qeyri-neft sektorunun sabit inkişafının təmin olunması kimi başlıca strateji vəzifələrin yerinə yetirilməsi Azərbaycanın iqtisadi həyatında çox ciddi nailiyyətlərin qazanılmasını şərtləndirmişdir. Bu gün qlobal iqtisadi sferada müşahidə olunan mənfi tendensiyalar və risklər fonunda Azərbaycan özünün iqtisadi məkanını mənfi təsirlərdən qoruya, bu cür meyillərə qarşı ciddi müqavimət göstərə bilir. Qlobal pandemiya dövründə ölkəmizdə ümumi daxili məhsul 1,1 faiz artıb, qeyri-neft sektorunda 3 faizdən çox artım olub, qeyri-neft sənaye sektorunda isə artım 23 faizdir. Bu da, ilk növbədə, onunla əlaqədardır ki, ölkəmizin iqtisadi sütunları möhkəmdir, kifayət qədər böyük iqtisadi imkanlara və resurslara malikdir. Azərbaycan heç bir beynəlxalq donor təşkilatdan asılı olmadan milli iqtisadiyyatını inkişaf etdirmək gücündədir. Bu da həyata keçirilən məqsədyönlü islahatların daha bir uğurlu göstəricisi kimi dəyərləndirilməlidir.

O da məlumdur ki, ölkəmizin iqtisadi imkanlarının genişlənməsi və iqtisadi qüdrətinin artması daha səmərəli və çoxşaxəli sosial müdafiə tədbirlərinin həyata keçirilməsinə imkan verir. Başqa sözlə desək, Prezident İlham Əliyevin ardıcıl və davamlı islahatlar kursu, qazanılan iqtisadi nailiyyətlər ölkə vətəndaşlarının rifahında hərtərəfli əksini tapır. Ötən il həyata keçirilən böyük sosial paket 4,2 milyon vətəndaşımızı əhatə etməklə, onların maddi-rifah halının əsaslı şəkildə yaxşılaşmasını təmin etdi. Əməkhaqqı və pensiyaların artırılması, aztəminatlı ailələrə yardımların edilməsi, qaçqın və məcburi köçkünlərin, şəhid ailələrinin, müharibə veteranlarının həyat şəraitinin yaxşılaşdırılması və bu istiqamətdə atılan digər addımlar Azərbaycanda sosial siyasətin prioritet təşkil etdiyini və ölkə vətəndaşlarının maraqlarının, mənafeyinin hər şeydən üstün olduğunu göstərir. Cari ildə də sosial layihələrin davam etdirilməsi, bu sahədə heç bir proqramın ixtisar edilməməsi sübut edir ki, Azərbaycan dövləti yalnız öz gücünə, öz imkanlarına arxalanaraq genişmiqyaslı sosial proqramlar həyata keçirir, dövlətimizin və xalqımızın maraqlarına, mənafeyinə söykənən qərarlar qəbul edir.

Qeyd etməliyik ki, Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar uğurlu siyasi islahatlarla tamamlanır. Həm konseptual, həm də struktur xarakteri daşıyan bu islahatlar dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsi, optimallaşdırılması, səmərəliliyinin artırılması, qərarların icrası mexanizminin müasir tələblərə uyğunlaşdırılması və yeni keyfiyyət mərhələsinə yüksəldilməsi məqsədlərinə xidmət edir. Eyni zamanda Azərbaycanda demokratik təsisatların möhkəmləndirilməsi, siyasi plüralizmin və çoxpartiyalı demokratik siyasi sistemin inkişaf etdirilməsi, insan hüquq və azadlıqlarının təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinə geniş imkanların yaradılması, dövlət və özəl qurumların fəaliyyətində şəffaflığın və hesabatlılığın təmin olunması, ictimai və sosial xidmətlər sahəsində institusional islahatların reallaşdırılması ilə yeni və ciddi keyfiyyət dəyişikliyinə nail olunması, həyata keçirilən kadr islahatları müasir mərhələdə Azərbaycanda praqmatik, düşünülmüş siyasi kursun reallaşdırılmasını təsdiq edir.

Beləliklə, Azərbaycanda sistemli islahatlar cari ildə də davam etdirilir, dövlət idarəetmə sistemi, icra və qanunverici hakimiyyəti və digər institusional sahələri əhatə edir. Möhtərəm Prezidentimizin müşavirədə bu mövzuya xüsusi diqqət ayırması, islahatların əhəmiyyətini və uğurlu nəticələrini diqqətə çatdırması göstərir ki, müasirləşməyə, yeniləşməyə, ölkəmizin daha da inkişafına xidmət edən bu siyasi kurs ardıcıldır və gələcək dövrlərdə də uğurla reallaşdırılacaq.

**- Milli Məclisin Aparatında və İşlər İdarəsində aparılan struktur islahatları barədə nə demək olar? Bu islahatları zəruri edən şərtlər nədən ibarətdir?**

- Təbii ki, Azərbaycanda həyata keçirilən və bir qədər əvvəl qeyd etdiyimiz çoxşaxəli islahatlar ölkə həyatının bütün sahələrində olduğu kimi, Azərbaycan Respublikası Milli Məclisinin də fəaliyyətinin yenidən qurulması, tərkibinin yenidən formalaşması zərurətini yaratmışdı. Buna görə də Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə Milli Məclisin cənab Prezidentə müraciəti əsasında növbədənkənar parlament seçkiləri təyin olunmuş və keçirilmiş, Milli Məclis yeni tərkibdə formalaşmışdır. Milli Məclisin ilk iclasında isə qurumun rəhbərliyi tam tərkibdə dəyişmişdir. İlk dəfə olaraq müxalifət partiyasını təmsil edən deputat Milli Məclisin Sədr müavini seçilmişdir. Həmçinin komitələrin sədr və sədr müavinləri sırasında müxalifət partiyalarının təmsilçiləri də yer almışdır. Möhtərəm Prezidentimizin də həmin müşavirədə qeyd etdiyi kimi, bu da çox önəmli addımdır və ilk növbədə, siyasi sistemin yeni konfiqurasiyasına yol açır. Bu, eyni zamanda Milli Məclisdə gedən proseslərə də müsbət təsir göstərəcək. Siyasi dialoq, milli və dövlətçilik məsələləri ətrafında əməkdaşlıq mühitinin möhkəmlənməsi həm də Azərbaycanda çoxpartiyalı sistemin təkmilləşdirilməsinə, siyasi münasibətlərin sağlam zəmində qurulmasına xidmət edir. Eyni zamanda bu addımlar sübut edir ki, Azərbaycan bundan sonra da demokratik inkişaf istiqamətində önəmli addımlar atacaq. Bunun üçün dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə çox ciddi, qətiyyətli siyasi iradə nümayiş etdirilir.

Milli Məclisin Aparatında və İşlər İdarəsində aparılan struktur islahatlarına gəldikdə isə burada da məqsədimiz istər parlament Aparatının, istərsə də İşlər İdarəsinin daha müasir əsasda yenidən qurulmasına, iş prosesində şəffaflığın təmin edilməsinə nail olmaqla daha çevik və daha səmərəli fəaliyyətin təşkil olunmasıdır. Hesab edirik ki, Azərbaycan xalqının, seçicilərin də gözləntiləri bu yöndədir.

**- Sahibə xanım, bu gün nəinki ölkəmizdə, eləcə də dünyada gündəmin əsas müzakirə mövzusu yeni növ koronavirusun sürətli yayılması və ona qarşı qlobal miqyasda görülən tədbirlərdir. Azərbaycanda bu epidemiyanın yayılmasının qarşısının alınması istiqamətində çox ciddi addımlar atılır. Siz ölkəmizdə epidemiyaya qarşı görülən işləri və onun nəticələrini necə qiymətləndirirsiniz?**

- 2019-cu ilin sonlarında aşkara çıxan bu virusun yayılması ötən aylar ərzində nəinki səngiməyib, əksinə, daha geniş yayılaraq bu gün çox təhlükəli bir hal alıb. Dünya son onilliklərdə bəlkə də ilk dəfə belə böyük pandemiya ilə üzləşib. Bu virus hər bir dövləti, hər kəsi təhdid edir, heç bir sərhəd tanımır. Elə onun yayılma arealına və sürətinə nəzər yetirəndə hər şey aydın görünür. Hər gün yüzlərlə insanın bu virusdan həyatını itirməsi, yeni insanların bu xəstəliyə yoluxması, dövlətlərə dəyən hələ ki, miqyası müəyyənləşməyən böyük ziyan bir daha bu epidemiyanın yaratdığı təhlükənin nə dərəcədə təhlükəli və ciddi olduğunu təsəvvür etməyə imkan verir. Pandemiyanın nə vaxt qurtaracağı, necə inkişaf edəcəyi ilə bağlı heç bir proqnoz səsləndirmək mümkün deyil, eyni zamanda bu virusa qarşı təyin olunmuş, sınaqdan keçirilmiş hər hansı tibbi metod, vaksin mövcud deyil. Bu da şübhəsiz ki, vəziyyəti daha da mürəkkəbləşdirir.

Azərbaycan koronavirusa qarşı mübarizədə dünyada öncül dövlətlərdən biridir. Ölkəmizdə bu virusun yayılmasının qarşısının alınması istiqamətində görülən tədbirlər örnək təşkil edir və uğur formulu kimi qəbul olunur. Bilirsiniz ki, Azərbaycan bu virusun dünyada hələ indiki qədər geniş yayılmadığı başlanğıc mərhələdə dərhal preventiv tədbirlər görməyə başladı, çevik və önləyici qərarlar qəbul etdi. İlk günlərdən Ümumdünya Səhiyyə Təşkilatı ilə səmərəli əməkdaşlıq edən ölkəmiz təşkilatın tövsiyələrini nəzərə alaraq, eyni zamanda, tərtib olunan tədbirlər planını uğurla yerinə yetirərək çox operativ və çevik fəaliyyət göstərib. Qəbul olunan qərarlar situasiyaya tamamilə adekvat olub və uğurlu nəticələr verib. Prezident İlham Əliyevin sərəncamı ilə cari ilin əvvəlində yaradılan Nazirlər Kabineti yanında Operativ Qərargah səmərəli fəaliyyət göstərib. Bütün təhsil müəssisələrində tədris prosesinin dayandırılması, ölkə ərazisində kütləvi tədbirlərin təxirə salınması, sosial təcridlə bağlı xüsusi rejim, daha sonra isə xüsusi karantin rejiminin və nəhayət, ölkədə hərəkət məhdudiyyətinin tətbiq olunması nəticə etibarilə Azərbaycanda bu virusun daha geniş yayılmasının qarşısının alınması istiqamətində uğurlu nəticələr verib. Azərbaycanda vəziyyət nəzarət altındadır. Əgər bu addımlar vaxtında atılmasaydı və düşünülmüş strategiya çərçivəsində məhdudlaşdırıcı rejim tətbiq edilməsəydi, bu gün başqa təhlükəli vəziyyət yarana bilərdi. Azərbaycan dövlətinin əsas məqsədi ondan ibarətdir ki, insanlarımız bu xəstəliyə yoluxmasın, vətəndaşlarımızın sağlamlığı qorunsun və bu virusun yaratdığı fəsadlar aradan qaldırılsın.

Digər mühüm məqam pandemiyanın ölkə iqtisadiyyatına mənfi təsirlərinin qarşısının alınması istiqamətində görülən tədbirlərlə əlaqədardır. Prezident İlham Əliyev müşavirədə bu mühüm məsələyə diqqət çəkdi, pandemiyanın ölkə iqtisadiyyatına mənfi təsirlərinin qarşısının alınması istiqamətində görülən sistemli və koordinasiyalı işlərin xüsusi əhəmiyyətinə toxundu. Bu gün iqtisadi böhrandan əziyyət çəkən əksər ölkələr beynəlxalq maliyyə institutlarına, Beynəlxalq Valyuta Fonduna və Dünya Bankına borc üçün müraciət etdikləri halda Azərbaycan özünün güclü maliyyə imkanları hesabına xarici şokların təsirlərini aradan qaldırmağa qadir dövlətdir. Respublikamızın strateji valyuta ehtiyatları - güclü “təhlükəsizlik yastığı” makroiqtisadi sabitləşdirmə, iqtisadi fəallığın qorunub saxlanması və dayanıqlı iqtisadiyyatın inkişafı üçün möhkəm təminat yaradır. Hesab edirəm ki, Azərbaycan postpandemiya dövründə də atacağı addımlarla ölkəmizin sabit, dinamik inkişaf meyillərinin qorunmasına nail olacaqdır.

**- Azərbaycan Respublikası Milli Məclisi bu istiqamətdə hansı addımları atır?**

- Ölkəmizdə əhalinin sağlamlığının qorunması, koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə görülən işlər çərçivəsində Milli Məclis tərəfindən də bir çox tədbirlər həyata keçirilir. Bu kontekstdə parlamentin komitə və komissiyalarının iclaslarının, Milli Məclis Aparatının və İşlər İdarəsinin toplantılarının keçirilməsi müvəqqəti dayandırılıb, idarəetmə yalnız telefon (selektor), mobil və internet rabitəsi vasitəsilə həyata keçirilir. Həmçinin Milli Məclis deputatlarının və əməkdaşlarının ezamiyyətləri və xarici ölkələrə səfərləri, parlamentdə vətəndaşların qəbullarının keçirilməsi müvəqqəti dayandırılıb. Milli Məclis deputatlarının köməkçiləri isə seçki dairələrində seçicilər ilə birbaşa təmasda olmadan onların müraciətlərini internet və telefon rabitəsi vasitəsilə qəbul edirlər.

Milli Məclisin inzibati binalarında insanlar arasında birbaşa təması məhdudlaşdırmaq, idarəetməni mobil və internet rabitəsi vasitəsilə həyata keçirmək məqsədilə parlament rəhbərliyi ilə komitə və komissiyaların rəhbərləri arasında, Milli Məclisin rəhbərliyi ilə parlamentdə təmsil olunan siyasi partiyaların sədrləri arasında, Milli Məclisin rəhbərliyi ilə yeni seçilən deputatlar arasında, habelə Milli Məclisin rəhbərliyi ilə parlament Aparatının və İşlər İdarəsinin məsul vəzifəli şəxsləri arasında internet üzərindən informasiya mübadiləsi qrupları yaradılıb. İlk dəfə olaraq Milli Məclisin rəhbərliyi ilə komitə sədrlərinin internet üzərindən videokonfransı keçirilib, növbəti plenar iclasın gündəliyi və cari məsələlər videokonfrans üsulu ilə müzakirə olunub.

Həmçinin Milli Məclisin komitə iclasları da videokonfrans vasitəsilə onlayn keçirilir. Milli Məclisin martın 30-da və aprelin 9-da keçirilən plenar iclasları koronavirusa qarşı mübarizə tədbirləri çərçivəsində müəyyənləşdirilmiş müvafiq qaydalara uyğun keçirilib.

Milli Məclisin iclasında ölkəmizdə koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə həyata keçirilən tədbirlər çərçivəsində İnzibati Xətalar və Cinayət məcəllələrinə əhəmiyyətli dəyişikliklər edilib. Həmçinin “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” qanuna və “Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında” qanuna müvafiq dəyişikliklər edilib.

**- Çox təəssüf ki, ölkəmizdə kiçik bir siyasi marginal qrup var ki, onlar Azərbaycan hökumətinin koronavirus infeksiyasının yayılmasının qarşısının alınması istiqamətində gördüyü sosial təcrid tədbirlərini siyasiləşdirir, məsələni manipulyasiya edərək başqa cür təqdim etməyə çalışırlar. Siz bu cür cəhdlərlə bağlı nə düşünürsünüz?**

- Əlbəttə, indiki həssas və çətin məqamda, Azərbaycan dövlətinin bütün mümkün resursları bu virusun yayılmasının qarşısının alınmasına səfərbər et-



diyi zamanda bu mövzuda siyasi manipulyasiya etmək, görülən səmərəli tədbirləri qeyri-adekvat təqdim etmək qətiyyən yolverilməz və qəbulolunmazdır. Bu cür cəhdlər hər hansı bir siyasi təşkilat və qrupa başucalığı gətirmir. Hesab edirəm ki, Azərbaycan xalqı, cəmiyyətimiz də məsələni məhz bu cür qiymətləndirir, ictimai rəyi yanıltmaq cəhdlərini qətiyyətlə pisləyir.

İndi internet dövrü, texnologiyalar, informasiya əsridir. İstənilən bir dövlətdə baş verən hər hansı hadisə çox qısa zamanda dünyanın hər yerində xəbərə çevrilir, cəmiyyət ondan xəbərdar olur. Bu gün koronavirus pandemiyasının dünyanın ən inkişaf etmiş dövlətlərində belə yaratdığı ağır fəsadlar hamıya bəllidir. Eyni zamanda bu dövlətlərin həyata keçirdiyi təcrid və məhdudlaşdırma tədbirləri ilə bağlı hər birimiz məlumatlıyıq. Ona görə də insanları “feyk” bəyanatlarla, yalan iddialarla aldatmaq, çaşdırmaq mümkün deyil.

Hər bir vətəndaşımız əmin olsun ki, Azərbaycan dövləti bütün imkanlarını bu epidemiyanın yayılmasının qarşısının alınmasına və onun fəsadlarının aradan qaldırılmasına səfərbər edib. Bu təhlükəli virusa qarşı mübarizədə hər bir vətəndaşımızın üzərinə çox böyük məsuliyyət düşür. Ölkəmizdə görülən bütün işlər, qəbul edilmiş qərarlar bir məqsədi güdür ki, dövlətimiz və xalqımız bu ağır sınaqdan az itkilərlə çıxsın və vətəndaşlarımızı maksimum dərəcədə qoruya bilək. Hər birimiz vəziyyətin son dərəcə ciddi olduğunu anlamalı, vətəndaş məsuliyyəti nümayiş etdirərək sosial təcrid tədbirlərinə, karantin rejiminə əməl etməklə özümüzü və yaxınlarımızı qorumalı, bu pandemiyanın təsirlərinin və fəsadlarının daha qısa müddətdə aradan qaldırılmasına yardımçı olmalıyıq.

**- Ötən həftə Milli Məclisdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu ildə fəaliyyəti haqqında hesabatı müzakirə olundu və qəbul edildi. Bu hesabatla bağlı nə deyə bilərsiniz?**

- Əvvəla, onu deyim ki, ölkədə yaranmış epidemioloji vəziyyət səbəbindən və Nazirlər Kabinetinin təxirəsalınmaz problemlərlə məşğul olması ilə əlaqədar Azərbaycan Hökumətinin hesabatı videokonfrans şəklində təqdim olundu. Hesabatda Nazirlər Kabinetinin ötən ildə fəaliyyəti haqqında geniş və əhatəli məlumatlar öz əksini tapıb. Strukturu, zəngin analitik informasiyaları və geniş məzmunlu təhlilləri ilə diqqət çəkən hesabatın kifayət qədər peşəkarlıqla hazırlandığını söyləyə bilərik. 2019-cu ildə Azərbaycanın böyük uğurlar qazandığını nəzərə alsaq, o zaman bu nailiyyətlərin əldə olunmasında və möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən müəyyənləşdirilən vəzifələrin uğurlu icrasında təbii ki, Azərbaycan Hökumətinin də rolunu qeyd etməliyik. 2019-cu ildə ölkəmizdə davamlı inkişaf meyillərinin, makroiqtisadi sabitliyin və maliyyə dayanıqlılığının qorunması, milli iqtisadiyyatımızın rəqabətqabliyyətliliyinin və ixracyönümlülüyünün təşviq olunması, müasir sənayeləşmə siyasətinin uğurla həyata keçirilməsi, aqrar sahənin, o cümlədən qeyri-neft sektorunun uğurlu inkişafının təmin olunması və bu kimi digər prioritetlərin həyata keçirilməsində, sosial müdafiə tədbirlərinin genişləndirilməsində Azərbaycan Hökumətinin müsbət rolu mütləq qeyd olunmalıdır. Ona görə də Milli Məclisdə hesabatın müsbət qiymətləndirilməsi tam obyektivdir və adekvatdır.

Digər tərəfdən, bilirsiniz ki, Azərbaycan Hökuməti ölkəmizdə koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyət göstərir, gərgin qrafiklə işləyir. Hökumətin və Operativ Qərargahın gördüyü tədbirlər ölkə ictimaiyyəti tərəfindən təqdir olunur və bu da düşünürəm ki, haqlı əsaslara malikdir.

**- Sahibə xanım, aprelin 10-da Bakıda Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirildi. Bu beynəlxalq tədbirdə dünyada və regionda cərəyan edən mühüm hadisələr müzakirə olundu. Siz bu görüşün əhəmiyyəti barədə nə deyə bilərsiniz?**

- Bakıda Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşünün keçirilməsi tarixi hadisə kimi qiymətləndirilməlidir. Türk Şurası dünya miqyasında ilk təşkilatdır ki, koronavirus pandemiyasına həsr olunmuş belə bir Zirvə görüşü keçirir. Bizim üçün çox sevindirici məqamlardan biri ondan ibarətdir ki, bu beynəlxalq tədbirin təşəbbüsü möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən irəli sürülüb və dərhal da üzv dövlətlərin rəhbərləri tərəfindən müsbət qarşılanıb. Bu, ilk növbədə, Azərbaycan dövlətinə, Prezident İlham Əliyevə, onun təşəbbüslərinə yüksək hörmət və etimadı göstərir. Eyni zamanda təşkilat daxilində mövcud olan yüksək həmrəyliyin, ortaq mövqedən hərəkət etmək istəyinin də bariz nümunəsidir. Bu da təbiidir, çünki Türk Şurasına üzv ölkələri ortaq soykök, tarixi, mədəni dəyərlər birləşdirdiyi kimi, müasir mərhələdə də birgə mövqe ortaya qoymaq, xalqlarımızın inkişafı naminə ortaq tədbirlər həyata keçirmək üçün kifayət qədər ciddi əsaslar və imkanlar mövcuddur.

Türk Şurasına üzv ölkələr arasında münasibətlərin inkişafını şərtləndirən mühüm məqamlardan biri də bu gün sözügedən geosiyasi məkanda mövcud olan iqtisadi resurslardır, enerji resursları və kommunikasiya imkanlarıdır. Həyata keçirilən layihələr, üzv ölkələrin geniş iqtisadi potensialı və səyləri gələcək mərhələdə də əlaqələrin dinamikasına müsbət təsir göstərəcək. Mövcud imkanlardan daha geniş istifadə olunması, nəqliyyat daşımalarının artması, idxal-ixrac əməliyyatlarının genişləndirilməsi ölkələrimizin iqtisadiyyatına da böyük töhfələr verəcək.

Ümumiyyətlə, Türk Şurasının dostluq, qardaşlıq təməlləri üzərində qurulması təşkilatın daha uğurlu fəaliyyətinə geniş imkanlar yaradır. Hazırda Türk Şurasına üzv dövlətlər arasında səmərəli münasibətlər, əməkdaşlıq əlaqələri dinamik inkişaf tempinə malikdir. Bunun da nəticəsidir ki, Türk Şurasının dünyadakı mövqeləri və rolu getdikcə daha da artır. Xüsusilə ölkəmizin sədrliyi dövründə təşkilatın beynəlxalq miqyasda rolunun gücləndirilməsi istiqamətində mühüm addımlar atılıb və bu sahədə görülən uğurlu işlərin nəticələri üzv dövlətlərin rəhbərləri tərəfindən də yüksək qiymətləndirilir.

Beləliklə, hesab edirik ki, Azərbaycan dövlətinin başçısının təşəbbüsü ilə keçirilən bu Zirvə görüşü məhsuldar olmaqla yanaşı, beynəlxalq ictimaiyyətə də mühüm mesajların ünvanlandığı vacib bir platformaya çevrildi.

**- Sahibə xanım, aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirilib. Sizinlə söhbətimizdə də müşavirə ilə bağlı müxtəlif məsələlərə toxundunuz. Yekunda bir daha müzakirə olunan məsələlər, qarşıda duran vəzifələr və prioritetlərlə bağlı sizin fikirlərinizi öyrənmək istərdik.**

- Artıq qeyd etdiyimiz kimi, müşavirədə Prezident İlham Əliyev 2020-ci ilin ilk rübündə ölkəmizdə, o cümlədən dünyada baş verən hadisələri, qarşıda duran məsələləri geniş təhlil etdi, ölkə həyatının bütün istiqamətləri üzrə əldə olunan nailiyyətləri, prioritet vəzifələri diqqətə çatdırdı. Hesab edirəm ki, bəşəriyyət üçün çox ağır keçən, ciddi sınaqlarla üzləşdiyimiz bir vaxtda 2020-ci ilin ilk rübü ölkəmiz üçün uğurlu olub, həm iqtisadi, həm sosial, həm də digər sahələrdə mühüm nailiyyətlər əldə olunub. Ölkəmizin sabit inkişafını davam etdirməsi, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi bir daha Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən düşünülmüş, məqsədyönlü siyasətin uğurlu, strateji nəticələr verdiyini, reallaşdırılan islahatların Azərbaycanın qarşısında yeni inkişaf perspektivləri yaratdığını göstərir.

Dövlət başçısı, həmçinin Azərbaycanın demokratik inkişafı, siyasi sistemin təkmilləşdirilməsi, islahatlar və digər mövzularda mühüm mesajlar verdi. Azərbaycan Respublikasının Milli Məclisi də dövlət başçısının çıxışında yer alan mühüm məsələləri öz fəaliyyətində daim diqqət mərkəzində saxlayaraq ölkəmizdə siyasi sistemin təkmilləşdirilməsi, islahatların dərinləşməsi istiqamətində də üzərinə düşən vəzifələri yerinə yetirməyə çalışacaqdır.

**- Sahibə xanım, geniş müsahibəyə görə təşəkkür edirik.**

- Sağ olun!

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Azərbaycan Respublikasının Prezidenti!

Bəşəriyyət koronavirusun yaratdığı ağır problem ilə üz-üzədir. Pandemiya Fransanı da, Azərbaycanı da sınağa çəkib.

Bu çətin zamanda, Heydər Əliyev Mərkəzinin möhtəşəm binasının aprelin 5-də axşam Fransa bayrağının rənglərində işıqlandırılması ölkəmizdə dəyərli həmrəylik jesti olaraq yüksək qiymətləndirildi.

Bu dostluğun belə müstəsna ifadəsinə görə Fransa Prezidenti Emmanuel Makronun və bütün fransızların adından Sizə öz minnətdarlığımı bildirirəm.

Cənab Prezident, Sizə dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Zakari QROS,***
***Fransanın Azərbaycandakı səfiri***

# E.S.Rüstəmovun Azərbaycan Respublikası Mərkəzi Bankının sədri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alıram:**

Elman Sirac oğlu Rüstəmov Azərbaycan Respublikası Mərkəzi Bankının sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 aprel 2020-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 16 aprel tarixli Sərəncamına Əlavə

# Qax rayonunda qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Yaşayış məntəqələri | Quyuların sayı, ədəd | Əhalinin sayı, nəfər |
|---|---|---|---|
| 1. | Almalı kəndi | 1 | 2167 |
| 2. | Baydarlı kəndi | 1 | 440 |
| 3. | Dəymədağlı kəndi | 1 | 883 |
| 4. | Əlibəyli kəndi | 1 | 1842 |
| 5. | Güllük kəndi | 1 | 2564 |
| 6. | İbaxlı kəndi | 1 | 656 |
| 7. | Kiçik Alatəmir kəndi | 1 | 38 |
| 8. | Qax şəhəri | 1 | 14401 |
| 9. | Qaradolaq kəndi | 1 | 201 |
| 10. | Qındırğa kəndi | 1 | 129 |
| 11. | Qıpçaq kəndi | 1 | 738 |
| 12. | Qorağan kəndi | 1 | 1382 |
| 13. | Ləpəpaşa kəndi | 1 | 486 |
| 14. | Marsan kəndi | 1 | 825 |
| 15. | Turaclı kəndi | 1 | 1048 |
| 16. | Uzuntala kəndi | 1 | 156 |
| 17. | Zərnə kəndi | 1 | 745 |
| | **Cəmi** | **17** | **28 701** |

# Prezident İlham Əliyevin sosial sahə ilə bağlı tapşırıqlarının icrası istiqamətində qarşıda duran vəzifələr müzakirə olunub

Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan müşavirədə dövlət başçısının sosial sahə ilə bağlı verdiyi tapşırıqların icrası istiqamətində qarşıda duran vəzifələrə dair Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində iclas keçirilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev vurğulayıb ki, Prezident İlham Əliyevin siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanır və bu gün pandemiya ilə əlaqədar ölkədə həyata keçirilən genişmiqyaslı dəstək tədbirləri bunu bir daha təsdiq edir. Müşavirədə dövlət başçısı deyib: "Sosial sahə bizim üçün həmişə prioritet olubdur, indiki şəraitdə ikiqat prioritet olmalıdır. Çünki son illərdə məşğulluq, sosial təminat istiqamətlərində böyük addımlar atılıb, ancaq indiki şəraitdə bu, xüsusi önəm daşıyır".

Nazir bildirib ki, cənab Prezidentin tapşırıqlarının icrası istiqamətində müvafiq addımlar atılır. Əhalinin həssas qruplarına dəstək tədbirləri daha da gücləndirilib. Özünüməşğulluq proqramının genişləndirilməsi və proqrama cəlb olunanlara aktivlərin verilməsi prosesi davam edir. Artıq banklar tərəfindən də aktivlər təqdim edilir. Bu il 12 min ailənin özünüməşğulluq proqramında iştirakı təmin olunacaq. Həmçinin haqqı ödənilən ictimai işlərin miqyası genişlənir.

S.Babayev, eyni zamanda özəl sektorda iş yerlərinin qorunması üçün məqsədyönlü işlər aparıldığını diqqətə çatdırıb. Qeyd edib ki, qeyri-dövlət sektorunda mövcud iş yerləri qorunub saxlanılmaqla, əmək müqavilələrinin sayı artmaqda davam edib. 2020-ci ilin 1 aprel tarixinə özəl sektorda əmək müqavilələrinin sayı 664 119 olubsa, bu göstərici 715 mini ötüb. Beləliklə, qeyri-dövlət sektorunda əmək müqavilələrinin sayında 1 aprel tarixindən 51 min müqavilə, 1 yanvar tarixindən isə 73 min müqavilə artımı olub.

Nazir işini və qazancını itirmiş şəxslərə birdəfəlik ödəmənin verilməsi işlərinə aprelin 9-dan başlandığını deyib. İşsiz kimi qeydiyyata alınanlardan artıq 120 min nəfər üçün birdəfəlik ödəmənin bank və poçt filiallarına köçürüldüyünü, bu istiqamətdə ödənişlərin gündəlik olaraq davam etdiyini bildirib.

S.Babayev aktiv məşğulluq tədbirlərinin gücləndirilməsi, ünvanlı dövlət sosial yardımı proqramının genişləndirilməsi və s. istiqamətlərdə aparılan işləri də qeyd edib.

İclasda Prezident İlham Əliyevin tapşırıqlarının icrası istiqamətində qarşıda duran vəzifələr müzakirə olunub.

# Siyasi partiyaların qeydiyyata alınması ölkəmizdə mövcud olan yeni siyasi münasibətlərin təzahürüdür



"Siyasi partiyaların qeydiyyata alınması ölkəmizdə mövcud olan yeni siyasi münasibətlərin təzahürüdür".

Bu fikri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Ədliyyə Nazirliyi tərəfindən yeni partiyaların qeydiyyata alınmasına münasibət bildirərkən deyib.

Ədliyyə Nazirliyinin kollegiyasının qərarı ilə Azad Demokratlar Partiyasının və Yeni Zaman Partiyasının qeydiyyata alınmasını çox müsbət hal kimi dəyərləndirən komitə sədri qeyd edib ki, bu partiyalar uzun illər mövcud olsa da qeydiyyatsız fəaliyyət göstərirdilər. Hazırda isə siyasi partiyaların qeydiyyata alınması ölkəmizdə mövcud olan yeni siyasi münasibətlərin təzahürüdür.

Əli Hüseynli vurğulayıb ki, ölkəmizdə cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən islahatlar siyasi sistemi də əhatə edir. Hazırda fərqli siyasi baxışlarına baxmayaraq, milli dövlətçilik mənafeyindən, dövlət maraqlarından çıxış edən siyasi qüvvələrlə dialoq daha da dərinləşməkdədir.

Komitə sədri xatırladıb ki, altıncı çağırış Milli Məclisdə ilk dəfə olaraq müxalifət partiyasını təmsil edən millət vəkili Milli Məclisin sədr müavini seçilib. "Həmçinin komitələrin sədr və sədr müavinləri sırasında müxalifət partiyalarının təmsilçiləri də yer alıb. Bütün bunlar həm də Azərbaycanda çoxpartiyalı sistemin təkmilləşdirilməsinə, siyasi sistemin yeni konfiqurasiyasının formalaşmasına xidmət edir. Yeni siyasi partiyaların qeydiyyata alınması isə ölkəmizdə siyasi sistemin daha da təkmilləşməsinə və münasibətlərin daha sağlam zəmində qurulmasına xidmət edəcək", - deyə Əli Hüseynli vurğulayıb.

# Diasporla İş üzrə Dövlət Komitəsinin "qaynar xətt"i 24 saat ərzində bütün müraciətləri qəbul edir

Koronavirusla bağlı 47 ölkədən 5100-dən çox vətəndaşımız Diasporla İş üzrə Dövlət Komitəsinə müraciət edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində bildirib.

F.Muradov deyib ki, müraciətlər daha çox Türkiyə, Rusiya, İtaliya və digər ölkələrdəndir. Komitənin "qaynar xətt"i 24 saat ərzində bütün müraciətləri qəbul edir və aidiyyəti üzrə yönləndirir. Bəzi şəxslər yaranmış vəziyyətdən sui-istifadə etməyə çalışsalar da, bu cəhdlərin qarşısı alınıb.

# Azərbaycanda koronavirus infeksiyasına daha 30 yoluxma faktı qeydə alınıb, 56 nəfər müalicə olunaraq sağalıb

Azərbaycan Respublikasında yeni koronavirus infeksiyasına daha 30 yoluxma faktı qeydə alınıb, 56 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib. Məlumatda deyilir ki, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib. Onlardan 1946-cı il təvəllüdlü şəxsin xronik ürək çatışmazlığı, 1961-ci il təvəllüdlü digər şəxsin isə limfoleykoz xəstəliyi olub.

Hazırkı dövrədək ölkəmizdə 1283 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 460 nəfəri müalicə olunaraq sağalıb, 15 nəfər vəfat edib, 808 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 28 nəfərin vəziyyəti ağır, 33 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

# Qabaqlayıcı tədbirlər nəticəsində ölkəmizdə epidemioloji vəziyyət nəzarət altındadır



"Xüsusi karantin rejiminin uzadılması ilə əlaqədar zəruri tədbirlər görülür. Hazırda ölkəmizin aidiyyəti qurumlarının rəyləri, təklifləri, o cümlədən sanitar-epidemioloji vəziyyət təhlil edilir. Bunun əsasında da karantin rejiminin uzadılması və onun qaydaları ilə bağlı qərar barədə ictimaiyyətə ətraflı məlumat veriləcək".

Bu sözləri Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Hikmət Hacıyev bildirib ki, qərar verilərkən dünyada gedən proseslər də nəzərə alınır. Azərbaycanda vəziyyətin müsbət istiqamətə doğru getməsi heç də dünyada vəziyyətin belə olması demək deyil. Bu, o deməkdir ki, infeksiyanın yenidən xaricdən idxal olunması halları baş verə bilər. Karantin rejiminin həyata keçirilməsi avtomatik xarakter daşımır. Burada əsas məqsəd vətəndaşların sağlamlığıdır.

Prezidentin köməkçisi dövlətimizin həyata keçirdiyi zəruri və qabaqlayıcı tədbirlər nəticəsində epidemioloji vəziyyətin nəzarət altında olduğunu da diqqətə çatdırıb.

## Hələlik Azərbaycanın hava əlaqələrinin bərpası nəzərdə tutulmur

"Hələlik Azərbaycanın hava əlaqələrinin bərpası nəzərdə tutulmur və bu, may ayına da şamil ediləcək".

Bu sözləri aprelin 16-da Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində Prezidentin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Prezidentin köməkçisi qeyd edib ki, həmin müddətdə xüsusi çarter reysləri istisna olmaqla, sərnişin daşımalarının həyata keçirilməsinə yol verilməyəcək. Bu tədbirlər virusun xaricdən ölkəmizə daxil olunmasının və yenidən yoluxmaların qarşısının alınması məqsədilə həyata keçirilir.

## Ölkədəki hazırkı vəziyyət qənaətbəxş olsa da, qabaqlayıcı tədbirlər hələ davam etdirilməlidir

"Azərbaycanda görülən tədbirlər nəticəsində koronavirusla bağlı sanitar-epidemioloji vəziyyət nəzarət altındadır".

Bu sözləri Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Nazirlər Kabineti yanında Operativ Qərargahın aprelin 16-da keçirilən brifinqində deyib.

Hikmət Hacıyev bildirib ki, koronavirusla bağlı ölkədəki hazırkı vəziyyət qənaətbəxşdir, ancaq qabaqlayıcı tədbirlər bundan sonra da davam etdirilməlidir.

Prezidentin köməkçisi deyib ki, karantin rejiminin uzadılması ilə əlaqədar lazımi tədbirlər görüləcək. Digər ölkələrdə də karantin rejiminin uzadılması ilə bağlı tədbirlər həyata keçirilir. Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə əsasən, karantin rejimi ilə bağlı qərarda tələsmək olmaz.

## 200-400 arasında Azərbaycan vətəndaşının ölkəyə gətirilməsi nəzərdə tutulub

"Azərbaycanda müsbət koronavirus testlərinin 20 faizi Rusiyadan gələn vətəndaşlarda aşkarlanıb".

Bunu aprelin 16-da Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Prezidentin köməkçisi bildirib ki, xaricdə yaşayan vətəndaşların quru yolla və çarter reysləri vasitəsilə gətirilməsi məsələləri müzakirə olunur. Rusiyadakı vətəndaşlarımızın Azərbaycana gətirilməsində növbəlilik yaradılması üçün "Evə gedirəm" portalı yaradılıb. Qarşıdakı günlərdə portal aktiv fəaliyyətə başlayacaq. Rusiyadakı soydaşlarımız bu portalda qeydiyyatdan keçəcək və onların növbəlilik ardıcıllığı ilə müəyyən qruplar şəklində ölkəyə keçməsi təmin olunacaq. 200-400 nəfər arasında Azərbaycan vətəndaşının ölkəyə gətirilməsi nəzərdə tutulub. Portal fəaliyyətə başladıqdan sonra 5 gün ərzində müraciətlər qəbul ediləcək. Sonrakı 5 gün portalın fəaliyyəti dayandırılacaq və növbəlilik ardıcıllığı ilə ölkəyə qayıdış təmin olunacaq.

***AZƏRTAC***

# Ədliyyə naziri tərəfindən bölgə vətəndaşlarının videoqəbulu keçirilib

Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrinə uyğun olaraq aprelin 16-da Ədliyyə naziri Fikrət Məmmədov tərəfindən Şirvan şəhəri, Hacıqabul, Saatlı və Sabirabad rayonlarında yaşayan vətəndaşların videoqəbulu keçirilib.

Şirvan regional ədliyyə idarəsi vasitəsilə əvvəlcədən qəbula yazılmış 15 vətəndaşın videokonfrans şəklində müraciətləri dinlənilib, qaldırılan məsələlərlə bağlı nazirliyin videoqəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Bölgə sakinləri pandemiya şəraitində vətəndaşların müraciətlərinin dinlənilməsinin videokonfrans şəkildə təşkilindən məmnunluqlarını bildirib, onların qayğılarına həssaslıqla və diqqətlə yanaşılmasına görə ölkə Prezidentinə minnətdarlıqlarını ifadə ediblər.

# Regional mədəniyyət idarələrinin fəaliyyətinə həsr olunmuş videokonfrans

Aprelin 16-da Mədəniyyət naziri Əbülfəs Qarayevin sədrliyi ilə xüsusi karantin rejimi dövründə nazirliyin idarələrinin fəaliyyətinə həsr olunmuş videokonfrans keçirilib.

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, videokonfransda çıxış edən nazir Əbülfəs Qarayev ölkəmizdə koronavirus (COVID-19) infeksiyası səbəbindən tətbiq edilən xüsusi karantin rejimi günlərində mədəniyyət sahəsinin idarə olunması ilə bağlı görülən işlər, regional idarələrin fəaliyyəti, vətəndaşlara mədəni xidmətlər göstərilməsi, mədəniyyət müəssisələri tərəfindən onlayn şəkildə həyata keçirilən tədbirlər haqqında danışıb.

Mədəniyyət sahəsinin idarə olunmasında yeni yanaşmaların tətbiqinin sürətləndirilməsinin zəruriliyini vurğulayan nazir elektron xidmətlərin tətbiqinin genişləndirilməsi, əməkdaşların texnoloji vasitələrdən istifadə bacarıqlarının daha da artırılmasının vacib olduğunu bildirib: "Xüsusi karantin rejimində ölkəmizin mədəni həyatı qaynar olub. Onlayn dərslərin keçirilməsi, muzeylərə və qoruqlara virtual ekskursiyaların təşkili, kitabxanaların elektron xidmətlər göstərməsi istiqamətində əhəmiyyətli işlər həyata keçirilib. Bu müddət ərzində 3500-ə yaxın distant dərs keçirilib, mədəniyyətlə bağlı 8500-dən çox videoçarx hazırlanıb, eləcə də 300-ə yaxın onlayn tədbir keçirilib. Bu müddətdə mədəniyyət müəssisələrində dezinfeksiya işləri də davam etdirilib. Eyni zamanda əməkdaşlar tərəfindən tənha, yaşı 65 və daha yuxarı, sosial dəstəyə ehtiyacı olan insanlara baş çəkilib və onlara yardımlar edilib".

Nazir, həmçinin vurğulayıb ki, mədəniyyət sahəsində elektron xidmətlərin daha da inkişaf etdirilməsi məqsədilə nazir müavini Rafiq Bayramovun rəhbərliyi ilə işçi qrupu yaradılıb. İşçi qrupu elektron mədəni xidmətlərin inkişafı ilə bağlı fəaliyyəti təmin edəcək.

Əbülfəs Qarayev sosial şəbəkələr üzərindən fəaliyyətin daha da genişləndirilməsi, fəallığın artırılması, izləyicilərə mədəniyyət sahəsində baş verən yeniliklərin çatdırılması, elektron xidmətlərin əhatəsinin və səviyyəsinin yüksəldilməsi istiqamətində tapşırıq və tövsiyələrini verib.

Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva çıxış edərək xüsusi karantin günlərində muzeylərin fəaliyyətindən söz açıb. Bildirib ki, həm paytaxt, həm də region muzeyləri bu müddətdə öz fəaliyyətini onlayn formada davam etdirərək vətəndaşlara xidmət göstərir.

Nazir müavini muzeylərdə elektron xidmətlərin inkişafı, pandemiyadan sonrakı dövrdə də bu istiqamətdə görülən işlərin davam etdirilməsinin vacibliyini vurğulayıb.

Sonra videokonfrans Mədəniyyət nazirinin müavini Rafiq Bayramovun sədrliyi ilə davam edib. Mədəniyyət sahəsinin idarə olunmasında yeni texnologiyaların tətbiqi, göstərilən bütün mədəni xidmətlərin elektron versiyalarının yaradılmasının vacibliyindən danışan Rafiq Bayramov bildirib ki, bu istiqamətdə həyata keçirilən işlər pandemiya təhlükəsi aradan qalxdıqdan sonra da davam etdiriləcək: "Mədəniyyət sahəsinin idarə olunmasında müasir yanaşmaların daha geniş tətbiqi günün tələbinə çevrilib. Bu istiqamətdə beynəlxalq təcrübədən də istifadə olunmalıdır. Son illər elektron mədəni xidmətlərin göstərilməsi istiqamətində müəyyən işlər həyata keçirilib. Bu gün isə qarşımızda duran əsas məsələlərdən biri də mədəniyyət sahəsində göstərilən bütün xidmətlərin rəqəmsallaşdırılmasıdır. Göstəriləcək xidmətlərin audiovizual variantları yaradılmalı, hər bir mədəniyyət müəssisəsinin elektron bazası formalaşdırılmalıdır".

Daha sonra çıxış edən Regional siyasət şöbəsinin müdiri Pərviz İsgəndərli, İqtisadiyyat və planlaşdırma şöbəsinin müdiri Sima Həsənova, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi Cəlil Məlikov mövcud vəziyyətdə mədəniyyət idarələrinin fəaliyyəti barədə məlumat verib, elektron xidmətlərin göstərilməsi sahəsində atılan addımlardan danışıblar.

Sonda ölkəmizdə koronavirus infeksiyası ilə mübarizədə dövlət tərəfindən həyata keçirilən tədbirlərin əhəmiyyəti bir daha qeyd olunub. Sosial təcrid dövründə mədəniyyət sahəsinin üzərinə mühüm vəzifələrin öhdəsindən layiqincə gəlməsinin vacibliyi vurğulanıb.

# Gəncədə tibbi maska istehsalına başlanılıb



Gəncədə "Sahibkar qadınlar" İctimai Birliyinin müəssisəsi olan "Qızıl əllər" MMC-də tibbi maska istehsalına başlanılmışdır. Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və millət vəkili Pərvin Kərimzadə bununla bağlı müəssisədə olmuş, istehsal prosesi ilə maraqlanmışlar.

"Sahibkar qadınlar" İctimai Birliyinin sədri Zemfira Ağayeva məlumat verərək bildirmişdir ki, əgər əvvəllər tibbi maskalar daxili imkanlar hesabına 3-5 dərzi xanım tərəfindən tikilirdisə, hazırda istehsal prosesinə 20-yə yaxın işçi cəlb olunmuşdur. Burada xammal biçilərək dərzilərə paylanır, onlar isə öz növbələrində maskaları istifadəyə hazır vəziyyətə gətirirlər.

Müəssisənin istehsal sahələrini gəzən icra başçısı Niyazi Bayramov dərzi qadınlarla görüşmüş və istehsal prosesində iştirak edən xanımlara minnətdarlığını bildirmişdir. Qeyd etmişdir ki, koronavirus epidemiyasının geniş yayıldığı bir dövrdə tibbi maskalara böyük ehtiyac var və belə bir istehsal sahəsinin fəaliyyətə başlaması bu sahədə yaranmış problemlərin aradan qaldırılmasına xeyli kömək edəcəkdir. Azərbaycanda koronavirus epidemiyasının geniş yayılmasının qarşısının alınması, insanların sağlamlığının qorunması ilə bağlı ölkə başçısı İlham Əliyevin verdiyi tapşırıq və tövsiyələrdən danışan icra başçısı onu da vurğulamışdır ki, həyata keçirilən məqsədyönlü tədbirlər artıq öz müsbət nəticələrini verir. Belə bir ağır dövrdə hər bir Azərbaycan vətəndaşının üzərinə düşən vəzifə isə dövlət başçısının tövsiyələrinə əməl etmək, koronavirus epidemiyasına qarşı mübarizədə birlik nümayiş etdirməkdir.

Tam steril şəraitdə hazırlanan tibbi maskaların ilk dəsti xidmət sahələrində çalışan şəxslərə, Gəncə Uşaq evinə və pensiyaçıların ərazi sosial xidmət mərkəzi əməkdaşlarına təmənnasız paylanmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# İqtisadiyyat Nazirliyi xəbərdarlıq edir

İqtisadiyyat Nazirliyi koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar maliyyə dəstəyi göstərilmiş sahibkarlıq subyektlərində işçi saylarının ixtisarına yol verilməməsi haqqında xəbərdarlıq edib. Bu barədə AZƏRTAC-a İqtisadiyyat Nazirliyindən məlumat verilib.

Xəbərdarlıqda deyilir:

"Hörmətli vergi ödəyiciləri!

Koronavirus (COVID-19) pandemiyasının yaratdığı mövcud şəraitdə məşğulluq məsələlərinə həssaslıqla yanaşılmalı, işçilərin ixtisarı və əməkhaqlarının azaldılması hallarına yol verilməməlidir. Pandemiya ilə əlaqədar dövlətdən maliyyə dəstəyi almış vergi ödəyiciləri tərəfindən işçi saylarının azaldılmaması ciddi nəzarətdə saxlanılır və belə hallara yol verildiyi təqdirdə həmin ödəyicilərə qarşı müvafiq tədbirlər görüləcək".

## Biz birlikdə güclüyük!

# Xalqımız öz dövlətinin qüdrətinə inanır

## İlham Əliyev hər zaman olduğu kimi, öz xalqına arxalanaraq bu gün də qətiyyətli addımlar atır, əhalinin rifah halının daha da yaxşılaşması üçün çox əhəmiyyətli qərarlar qəbul edir

Aprelin 14-də Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə ölkə başçısının söylədiyi proqram xarakterli geniş nitqi ölkə ictimaiyyətinin böyük marağına səbəb olmuş və geniş əks-səda doğurmuşdur. Ölkə Prezidentinin dərin məzmun və mahiyyət daşıyan çıxışında, əslində, dövlətimizin strateji kursunun ilin ilk 3 ayında atılan taktiki addımları ifadə olunurdu.



Bu barədə qəzetimizə danışan Milli Məclis Sədrinin müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, tarix elmləri doktoru, professor Fəzail İbrahimli bildirdi ki, nəticələr Prezident İlham Əliyevin böyük siyasi əzmlə başladığı çoxşaxəli islahatlar kursunun ardıcıllıqla davam etməkdə olduğunu göstərir. Dünyanın yeni bir mərhələyə qədəm qoyduğu və hətta ən inkişaf etmiş ölkələrin böyük problemlərlə üzləşdiyi bir zamanda Azərbaycan öz dinamik inkişaf tempini qoruyub saxlayır. Bəşəriyyətin varlığını təhdid altına almış koronavirus təhlükəsi belə dövlətin iqtisadi inkişaf sürətinə və siyasi sabitliyinə mane ola bilmir.

Fəzail İbrahimli daha sonra dedi: "Müşavirədə ölkə rəhbəri müqayisə üçün diqqəti belə bir məqama yönəldir ki, pandemiyadan xilas olmaq üçün 150-dən çox ölkə Beynəlxalq Valyuta Fonduna maliyyə yardımı ilə bağlı müraciət etdiyi halda Azərbaycanın adı bu siyahıda yoxdur. Çünki əldə olunmuş sosial-iqtisadi tərəqqi bizə öz daxili resurslarımız hesabına istənilən problemi dəf etməyə, istənilən mürəkkəb vəziyyətdən üzüağ çıxmağa imkan verir. Prezidentin müvafiq sərəncamı ilə koronavirusla mübarizəyə 1 milyard manat vəsait ayrılmış, əlavə olaraq 2,5 milyard manatın da bu problemin həllinə cəlb olunacağı planlaşdırılır. Bu məqsədlə dövlət hesabına 6 müasir modul tipli xəstəxananın tikintisinə isə artıq başlanmışdır. Bu mənada Ümumdünya Səhiyyə Təşkilatının görülən işlərə yüksək qiymət verərək Azərbaycanı koronavirusla mübarizə sahəsində nümunəvi ölkə adlandırması isə çox fərəhləndiricidir.

Koronavirusun hücumları qarşısında bir çox ölkələrin milli valyutaları duruş gətirə bilmədiyi halda bizim manatın sabitliyi qorunub saxlanılmaqdadır. Məhz daxili siyasi sabitlik və iqtisadi stabillik Azərbaycanda səmərəli biznes mühitinin formalaşmasını şərtləndirən əsas meyarlardır. Təsadüfi deyil ki, məşhur "Heritage" Fondu iqtisadi azadlıqlar indeksinə görə Azərbaycanı dünya ölkələri sırasında 44-cü yerə layiq görüb".

Fəzail İbrahimlinin sözlərinə görə, cənab İlham Əliyevin müşavirədəki nitqi bir daha göstərdi ki, dövlətimizin daxili siyasətinin əsas qayəsini insanların sosial rifahı təşkil edir. Məhz buna görə də artıq ardıcıl olaraq neçə illərdir ki, dövlət büdcəsi sosial yönümdə tərtib olunur və onun mərkəzində məhz insan amili dayanır. Bu yaxınlarda Milli Məclisdə hökumətin hesabatını müzakirə edərkən bunun bir daha şahidi olduq. Bütün makroiqtisadi göstəricilərinə görə Cənubi Qafqaz regionunda liderliyi inamla qoruyub saxlayan Azərbaycanda həm də aparılan sosial islahatların nəticəsi olaraq əməkhaqları mütəmadi olaraq qaldırılır, pensiya və müavinətlər hər il indeksləşdirilir. Özünüməşğulluq proqramının uğur əmsalına görə Azərbaycan dünya üzrə orta göstəricidən yüksək nəticə əldə edə bilmişdir.

Son dövrlər idarəetmənin bütün səviyyələrində həyata keçirilmiş struktur islahatlarının keyfiyyət baxımından yeni bir idarəçilik mexanizminin formalaşmasını hədəf götürdüyünü bildirən Fəzail İbrahimli bu barədə də söz açdı. "Bu ilin fevral ayında keçirilmiş növbədənkənar parlament seçkiləri də bu islahatların məntiqi davamıdır və demokratik inkişaf istiqamətində atılmış növbəti addım kimi dəyərləndirilməlidir. Parlamentin və onun komitələrinin rəhbərliyində müxalifət partiyaların nümayəndələrinin təmsil olunması müstəqil Azərbaycan parlamentarizmi tarixində ilk dəfədir.

Siyasi sistemin təkmilləşdirilməsi, siyasi münasibətlərin sağlam zəmində qurulması və siyasi dialoq müstəvisində konstruktiv müxalif fikirlərə hörmətlə yanaşılması baxımından yeni prinsiplər ortaya qoyulub. Ölkədə fəaliyyət göstərən bütün siyasi partiyalar bu mütərəqqi təşəbbüsə müsbət reaksiya verməklə ümummilli maraqlar naminə iqtidarla birgə "dəyirmi masa" arxasında istənilən məsələnin müzakirəsinə hazır olduqlarını bəyan ediblər. Vətəndaş Həmrəyliyi Partiyasını qanunverici hakimiyyət orqanında təmsil edən deputat kimi düşünürəm ki, bu dialoq davamlı olacağı halda ölkənin siyasi arenasına həmrəyliyə söykənən yeni nəfəs gətirəcək, daha mütərəqqi münasibətlərin formalaşmasına öz dəyərli töhfəsini verəcəkdir".

Azərbaycanın müasir inkişaf yolu yeni intibah dövrünün formalaşmasını şərtləndirir. Bu, həm də özünü ikitərəfli və çoxtərəfli beynəlxalq münasibətlərdə göstərir. Fəzail İbrahimli 2020-ci ilin əvvəlindən bu müstəvidə bir sıra uğurlar əldə edildiyini bildirdi: "Xüsusilə Davos Forumunda Azərbaycan Prezidentinin iştirakı, bir sıra ölkələrin rəhbər şəxsləri və dünyada tanınmış nəhəng biznes qurumlarının təmsilçiləri ilə qarşılıqlı inam və etibara söykənən görüşləri respublikamızın iqtisadiyyatına və sosial sferaya sərmayə qoyuluşu baxımından öz müsbət nəticələrini verməkdədir. Bunun üçün ölkəmizdə müvafiq biznes mühiti mövcuddur.

Cənab İlham Əliyev Münxen Təhlükəsizlik Konfransında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistan təbliğatını darmadağın edən tarixi həqiqətləri canlı efirdə güclü arqumentlərlə geniş auditoriyaya çatdırmaqla yeni bir siyasi uğura imza atmış oldu. Bundan sonra qondarma "Dağlıq Qarabağ Respublikası"nda keçirilmiş "prezident seşkiləri"nin beynəlxalq aləm tərəfindən tanınmamasını heç də təsadüfi saymaq olmaz. Belə ki, bizə qarşı qərəzli mövqeyi və ikili standartları ilə seçilən Avropa Şurasını çıxmaq şərtilə bütün digər nüfuzlu beynəlxalq təşkilatlar öz mövqelərini ortaya qoyaraq Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi qəbul etdiklərini söyləmiş oldular. Bu, dövlətimizin və hökumətimizin xarici siyasət müstəvisində əldə etdiyi böyük nailiyyətdir.

Pandemiyanın törətdiyi maneələrə baxmayaraq, Azərbaycan beynəlxalq münasibətlərini inkişaf etdirməkdə davam edir. Bu mənada ölkə başçısının təşəbbüsü ilə videokonfrans şəklində keçirilmiş və Azərbaycanın sədri olduğu Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fövqəladə Zirvə görüşünü xüsusi qeyd etmək lazımdır. Bu tədbir Azərbaycan dövlətinin həmrəylik və qarşılıqlı etimada söykənən münasibətlər əsasında dünya siyasətinin nüfuzlu iştirakçısı olduğunu bir daha sübut etmiş oldu".

Fəzail İbrahimlinin sözlərinə görə, bütün bunlar onu deməyə əsas verir ki, cənab İlham Əliyev hər zaman olduğu kimi, öz xalqına arxalanaraq bu gün də qətiyyətli addımlar atır, əhalinin rifah halının daha da yaxşılaşması üçün çox əhəmiyyətli qərarlar qəbul edir: "Dövlətimizin qüdrətinə güvənən xalqımız da çətin gündə ölkə rəhbərliyi ilə daha möhkəm həmrəylik nümayiş etdirməklə öz məğrur obrazına yeni çalarlar gətirir".

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# 2020-ci il çox dərin və geniş islahatlar ili olacaq

## Prezident İlham Əliyev qlobal böhran dövründə də Azərbaycanın demokratik inkişaf istiqamətində önəmli addımlar atılacağını bəyan etdi

*Əvvəli 1-ci səh.*

Prezident hər il olduğu kimi, bu il də bütün sosial infrastruktur obyektlərinin tikintisinin ixtisarsız icra ediləcəyini vurğulayaraq qeyd edib ki, 2020-ci ildə minimum 7 min köçkün ailəsi yeni mənzillərə köçürüləcək və minimum 1500 şəhid ailəsinə yeni mənzillər veriləcək.

### Struktur islahatları davam etdiriləcək

Struktur islahatlarından da söz açan cənab İlham Əliyev onların davam etdirilməsinin vacibliyini qeyd edib. Çünki aparılan islahatların uğurları göz qabağındadır.

Aparılan islahatlarla Prezident Administrasiyasında, Nazirlər Kabinetində, parlamentdə böyük kadr dəyişiklikləri edilib. Əlbəttə ki, bütün hakimiyyət qollarında aparılan islahatlar bir məqsədi güdür - idarəetmə mexanizmi daha da təkmilləşsin, təbii olaraq, gəncləşmə siyasəti aparılsın və peşəkar kadrlar önəmli vəzifələrə gətirilsin: "Hesab edirəm ki, bizim sözümüzlə əməlimiz arasında hər zaman olduğu kimi, bu dəfə də vəhdət var və nəyi bəyan etmişəmsə, biz onu da təmin edirik. Hesab edirəm ki, Prezident Administrasiyasında, Nazirlər Kabinetində və Milli Məclisdə aparılan ciddi islahatlar nəticəsində ölkəmiz indi yeni inkişaf mərhələsinə inamla qədəm qoyur və idarəetmədə təkmilləşmə göz qabağındadır. Eyni zamanda yerli icra orqanlarında aparılan kadr islahatları, xüsusilə, xoşagəlməz hallara qarşı ciddi mübarizə də göz qabağındadır. Bu, bizim şüurlu seçimimizdir. Bütün xoşagəlməz hallara qarşı bundan sonra da ciddi mübarizə aparılacaq. Hesab edirəm ki, Prezident tərəfindən edilən xəbərdarlıq hər kəs üçün dərs olmalıdır. Əgər kimsə bundan ibrət götürməsə, günah onun özündə olacaq".

Dövlət başçısı vurğulayıb ki, bu islahatların məntiqi davamı parlament seçkiləri idi və bu ilin fevral ayında keçirilən VI çağırış Milli Məclisə seçkilər bir daha xalqın iradəsini ifadə edib. Parlament seçkilərini demokratik inkişaf istiqamətində atılmış növbəti addım hesab etmək olar.

### Qlobal böhran Azərbaycanı tutduğu yoldan döndərə bilməz

Əlbəttə ki, koronavirus pandemiyası bir daha uğurlu inkişaf üçün iqtisadiyyatın dayanıqlı olmasının ən vacib şərt olduğunu göstərdi. Buna nail olmaq üçün isə mütləq bütün sahələrdə islahatların aparılması zəruridir.

Prezident İlham Əliyev də hesab edir ki, siyasi islahatların aparılması bundan sonra da ölkənin imkanlarını daha da genişləndirəcək. Çünki xalq bu islahatların müsbət nəticələrini görür. Ona görə də Azərbaycan dövləti bundan sonra da demokratik inkişaf istiqamətində önəmli addımlar atacaq: "Bizim kifayət qədər güclü siyasi iradəmiz var. Biz görürük ki, siyasi və iqtisadi islahatlar paralel aparılarkən doğrudan da böyük uğurlara imza ata bilərik".

Dünyanı bürüyən koronavirus pandemiyasının digər dövlətlərin iqtisadiyyatına ciddi təsirlər etdiyini deyən Prezident qeyd edib ki, qlobal böhran Azərbaycan hökumətinin planlarına müəyyən qədər təsir etsə də, dövləti əsas yolundan döndərə bilməz.

Göründüyü kimi, Azərbaycanın inkişaf modeli bir çox ölkələr üçün praktik nümunədir. Hansı ki, bu model qlobal iqtisadi və maliyyə böhranları şəraitində özünü tam doğruldub. Bütün bunlar Prezident İlham Əliyevin yüksək şəxsi və siyasi keyfiyyətləri, hər bir məsələdə qətiyyətli mövqedən çıxış etməsi, xarizması sayəsində əldə edilib. İnanırıq ki, məhz cənab İlham Əliyevin düşünülmüş siyasəti ilə Azərbaycan qlobal böhrandan az itkilərlə çıxacaq və aparılan sosial-iqtisadi, siyasi-struktur islahatlar ölkəmizə hərtərəfli dividendlər gətirəcək: "Həyat yerində durmur, həyat davam edir və mən əminəm ki, 2020-ci il də çox dərin və geniş islahatlar ili olacaq, necə ki, 2019-cu ildə islahatların böyük hissəsi icra edilmişdir".

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Prezident İlham Əliyevin uğurları antimilli dairələrin niyyətini alt-üst edir

Uğur və nailiyyətləri şərtləndirən mühüm amillərdən biri sosial məsuliyyət prinsipidir. Təsadüfi deyil ki, şəffaf idarəçiliyi hökumətin qarşısında mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmiş Prezident İlham Əliyevin idarəçilik konsepsiyasında bu prinsip rəhbər tutulur və dövlət başçısı ictimaiyyətin görülmüş işlər, qarşıda duran vəzifələr barədə məlumatlandırılmasını zəruri sayır. Reallıq da göstərir ki, bu cür hesabatlar o cümlədən hər rüb üzrə əldə edilmiş sosial-iqtisadi nailiyyətlərin qiymətləndirilməsi, uğurların ictimaiyyətə düzgün, obyektiv çatdırılması, mövcud problemlər ətrafında müzakirələrin aparılması və onların həlli yollarının tapılması baxımından səmərəli vasitəyə çevrilib. Bu zaman diqqəti çəkən həm də o olur ki, praqmatik idarəetmənin bariz təcəssümü kimi, Prezident İlham Əliyev ictimaiyyət qarşısına yeni iqtisadi uğurlarla, inkişafı stimullaşdıran perspektivli layihələrlə çıxır.



Dövlət başçısının yanında keçirilən iqtisadi müşavirələr bu baxımdan xüsusi əhəmiyyətə malikdir və təsadüfi deyil ki, daim ictimaiyyətin dərin marağına səbəb olur. Aprelin 14-də növbəti iqtisadi müşavirə də yeni müzakirələrə yol açan aktual məsələlərlə yadda qaldı. Ən əsası, "2020-ci il uğurla başlamışdır. İlin əvvəlinin göstəriciləri deməyə əsas verir ki, Azərbaycanda islahatların davam etdirilməsi yaxşı nəticələrə gətirib çıxarır" deyən Prezident İlham Əliyev 2020-ci ilin də çox dərin və geniş islahatlar ili olacağını bəyan etdi.

Ümumiyyətlə, cari ilin ötən dövrünün yekunları Azərbaycanda iqtisadi inkişafla bağlı elan olunan prioritetlərin reallaşaraq həyata vəsiqə aldığını göstərir. Bunu şərtləndirən əsas amil ölkə iqtisadiyyatının bütün sahələrində, əsasən də qeyri-neft sektorunda artımın baş verməsidir. Elə bu məqam da Azərbaycanda iqtisadi inkişafın hər hansı bir sahə üzrə köklənməyərək kompleks xarakter daşıdığını yenidən bariz şəkildə təsdiq edir. Müşavirədə səslənən rəqəmlər də Azərbaycan iqtisadiyyatındakı artım templərinin davamlı olmasından xəbər verir. Belə ki, bu ilin 3 ayında qeyri-neft sektoru 3 faizdən çox, qeyri-neft sənayesi 23 faiz artıb. Bu da onu göstərir ki, bu sahəyə göstərilən diqqət və qoyulan sərmayə öz gözəl nəticəsini verməkdədir. Üç ayda vergi və gömrük orqanları büdcəmizə proqnozdan əlavə 310 milyon manatdan çox vəsait daxil ediblər. İnflyasiya 3 faiz səviyyəsində, əhalinin gəlirləri isə 7 faizə yaxındır. Yaxın keçmişimizdə baş vermiş iqtisadi və maliyyə çətinliklərindən ötən qısa müddətdə iqtisadiyyatda müşahidə olunan belə pozitiv dinamika özlüyündə çox böyük iqtisadi hadisədir. Bu kimi nailiyyətlər ölkədə düzgün istiqamətdə aparılan iqtisadi islahatların, o cümlədən sənayeləşmə siyasətinin məntiqi nəticəsidir. Bu göstəricilər həm də onu deməyə əsas verir ki, qeyri-neft sektorunun inkişafı istiqamətində qarşıya qoyulan vəzifələr yerinə yetirilir.

Əlbəttə, hər kəs etiraf edir ki, iqtisadi uğurlarımız daha böyük olardı, əgər dünyanı bürümüş koronavirus infeksiyası Azərbaycana ayaq açmasaydı. Müasir tibbin hələ ki, qarşısında aciz qaldığı koronavirus şərqdən-qərbə, şimaldan-cənuba bütün ölkələri çənginə alaraq pandemiya halını alıb. Başda ABŞ olmaqla, Avropanın inkişaf etmiş dövlətləri virusun əsirinə çevriliblər. ABŞ-da virusa yoluxanların sayı 600 mini, İtaliya, İspaniya, Fransa, Almaniya, Böyük Britaniya kimi ölkələrdə isə 100 mini ötüb. Ümumilikdə bütün dünya üzrə bu infeksiyaya yoluxan 2 milyondan artıq, eləcə də vəfat edən 133 mindən çox insanın böyük əksəriyyəti inkişaf etmiş Qərb ölkələrinin sakinləridir.

Fevralın sonunda koronavirusun ilk dəfə Azərbaycanda qeydə alınmasından sonra hökumət dərhal çevik reaksiya verdi və vaxtında təxirəsalınmaz addımlar atıldı. Koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət orqanlarının və qurumlarının rəhbər şəxslərindən ibarət qərargah yaradıldı. Həmçinin qabaqlayıcı tədbirlərin görülməsi və Azərbaycan Respublikasının bütün ərazilərində monitorinqin aparılması üçün aidiyyəti sahə mütəxəssislərindən ibarət ekspert qrupları təşkil olundu. Qonşu ölkələrlə gediş-gəlişin, məktəblərin, bağçaların, idman zallarının, ticarət və əyləncə mərkəzlərinin fəaliyyətinin dayandırılması, park və ictimai istirahət yerlərinə girişin qadağan olunması, kütləvi tədbirlərin keçirilməsinin təxirə salınması, martın 24-dən xüsusi karantin rejiminin, aprelin 5-dən isə ölkədə hərəkət məhdudiyyətinin tətbiqi kimi qabaqlayıcı və məhdudlaşdırıcı tədbirlər Azərbaycanda koronavirus infeksiyası probleminin bir sıra ölkələrdəki kimi təhlükəli hal almasının qarşısını aldı. Bunun nəticəsidir ki, Azərbaycanda, inkişaf etmiş Avropa ölkələrində olduğu kimi, faciəvi tendensiya baş vermədi. Prezident İlham Əliyevin müşavirədə qeyd etdiyi kimi, məhz bu addımların atılması nəticəsində Azərbaycanda vəziyyət nəzarət altındadır: "Hesab edirəm ki, bu günə qədər atılmış bütün addımlar düzgün istiqamətdə atılmış addımlardır. Məhz bu addımların atılması nəticəsində Azərbaycanda vəziyyət nəzarət altındadır. Əgər bu addımlar vaxtında atılmasaydı və biz düşünülmüş strategiya çərçivəsində məhdudlaşdırıcı rejimi mərhələli yollarla sərtləşdirməsəydik, bu gün xəstələrin sayı min yox, bəlkə də 10 min, bəlkə də 20 min ola bilərdi".

Xüsusilə qeyd etmək istərdim ki, ölkə ictimaiyyəti koronavirusun yayılmasının qarşısının alınması və onun sosial-iqtisadi sferaya mənfi təsirlərinin azaldılması istiqamətində ilk gündən Prezident İlham Əliyevin prinsipial mövqeyini görməkdədir. Dövlət başçısı həm koronavirusla mübarizədə, həm aztəminatlı insanların, həm sahibkarların və bütövlükdə iqtisadiyyatın bu qlobal pandemiya dövründə çətinlik çəkməməsi üçün nə lazımdırsa, hər birini artıqlaması ilə yerinə yetirir. Məhz İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində ölkəmizdə virusun yayılmasının qarşısının alınması, təsirinin məhdudlaşdırılması istiqamətində təxirəsalınmaz addımlar atılıb. Ölkə vətəndaşlarının sağlamlığının təmin olunması yolunda atılan addımlar, xüsusi karantin rejimi müddətində aztəminatlı ailələrə və işsizlərə yardım edilməsi xalqımıza diqqət və qayğının göstəricisidir.

Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması və buraya Prezidentin Ehtiyat Fondundan ilkin olaraq 20 milyon manatın ayrılması, koronavirus xəstələrinə xidmət göstərən həkimlərin maaşının artırılması, 575 çarpayıdan ibarət olan "Yeni klinika" xəstəxanasının virusa yoluxan xəstələrin ixtiyarına verilməsi, Sumqayıt Kimya Sənaye Parkında yaradılan tibbi maska istehsalı müəssisəsinin fəaliyyətə başlaması, koronavirusla əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan yaşı 65-dən yuxarı 176 məhkumun əfv edilməsi, pandemiya ilə mübarizə sahəsində həyata keçirilən səhiyyə tədbirləri çərçivəsində tibb müəssisələrinə və tibbi avadanlığa artan tələbatın qarşılanması və infeksiyaya yoluxmuş xəstələrin müalicəsinin səmərəli təşkili məqsədilə modul tipli 6 xəstəxananın quraşdırılması üçün 14,8 milyon manatın ayrılması Prezident İlham Əliyevin bir lider kimi, ilk növbədə, öz xalqının yanında olduğunu göstərən mühüm faktorlardır.

O cümlədən bu müddətdə minlərlə Azərbaycan vətəndaşı məhz İlham Əliyevin təşəbbüsü ilə dövlət hesabına xarici ölkələrdən təxliyyə edildi. Bəli, bu dar gündə Azərbaycan Prezidenti xaricdə olan vətəndaşlarımızı da unutmadı, onlara arxa durdu. Bununla da bir daha cənab İlham Əliyev hər bir azərbaycanlının Prezidenti olduğunu təsdiq etdi.

Bütün bu addımlar, Prezidentin insanların sağlamlığı və təhlükəsizliyi naminə dövlətin imkanlarını səfərbər etməsi Azərbaycan ictimaiyyəti tərəfindən təqdir edilir, böyük razılıqla qarşılanır. Təsadüfi deyil ki, bu günlərdə İlham Əliyev cənablarının ünvanına minlərlə təşəkkür məktubu gəlib. Bu məktubların hər birində Prezidentə dərin minnətdarlıq hissi ifadə olunur, ən xoş, ən səmimi arzular səsləndirilir. Ən əsası, bu məktubların hər biri xalqımızın öz rəhbəri ətrafında sıx birləşməsinin və bu çətin günlərdə milli həmrəylik nümayiş etdirməsinin göstəriciləridir.

Təəssüf ki, bu kritik günlərdə öz xalqı ilə həmrəy olmayanlar, hətta respublikamızda koronavirus infeksiyasının yayılmasına və insanların vəfat etməsinə sevinənlər də tapıldı. Bəli, ağa qara deməyə öyrəşən, Azərbaycanın uğurlarına qara yaxmağı özünün əsas vərdişinə çevirən, ona görə də mövcud olduqları dövrdə hakimiyyətə deyil, dövlətə və xalqa qarşı müxalifətçilik edən ünsürlər koronavirusun yayıldığı indiki dövrdə də siyasi əxlaqsızlıqlarını və rəzilliklərini ortaya qoyurlar.

Öncə onu qeyd edim ki, dünyanın bütün demokratik dövlətlərində siyasi idarəçiliyin xarakterindən asılı olmayaraq, iqtidar-müxalifət münasibətləri mövcuddur. Çünki müxalifətin mövcudluğu demokratik sistemin təkzibolunmaz elementidir. Azərbaycan da demokratik inkişaf yolu seçdiyindən müxalifət partiyaları ölkənin siyasi həyatında iştirak edir, parlamentdə təmsil olunurlar.

Müxalifətçilik heç bir halda dövlətə və xalqa qarşı yönəlməməlidir. Azərbaycanın siyasi tarixində hələ 90-cı illərin əvvəllərində Yeni Azərbaycan Partiyasının müxalifət partiyası kimi ortaya qoyduğu böyük təcrübə var. Müxalifət dövlətin milli maraq və mənafelərini hər şeydən üstün tutmalı, öz proqramları ilə hakimiyyətin fəaliyyətinin canlanmasına, alternativ düşüncələri ilə ölkə qarşısında duran vəzifələrin daha sürətlə gerçəkləşməsinə xidmət etməlidir. Prezident İlham Əliyevin müşavirədə dediyi kimi, "Bütün siyasi qüvvələr üçün bir amal, bir məsələ toxunulmaz olmalıdır, bu da bizim müstəqilliyimiz, dövlətçiliyimiz və dövlət maraqlarıdır".

Təəssüf ki, bu gün Azərbaycan gerçəkliyində bəzi müxalifət partiyalarının timsalında bunun tamamilə əksi müşahidə olunur. İndiyədək Azərbaycan cəmiyyəti həmin müxalifətdən dağıdıcılığa meyl etmək və yalan danışmaqdan başqa bir şey görməyib. Bu mənada onların fəaliyyəti daim sağlam müxalifətçilik prinsipləri ilə tamamilə ziddiyyət təşkil edib. Ona görə AXCP və ona bənzər partiyalar xalq arasında qəzəblə "dağıdıcı müxalifət" kimi tanınır. Düzdür, sıralarında adam da qalmayıb ki, dağıdıcılıqla məşğul olsunlar. Əslində, müxalifətçiliyi antimilli platformaya çevrilmiş belə qaragüruh qruplaşmalardan başqa nəsə gözləmək də sadəlövhlük olardı.

Birillik iqtidarlarına son qoyulmasından sonra onlar öz fəaliyyətlərini antiazərbaycançı dairələrlə əlaqələndiriblər. AXCP sədri Ə.Kərimlinin, Cəmil Həsənlinin antiazərbaycançı dairələrlə əməkdaşlığı, onlardan sifarişlər aldığı zaman-zaman təkzibolunmaz faktlarla ifşa olunub.

Azərbaycan hakimiyyəti hər zaman müxalifət partiyalarını sivil siyasi münasibətlərə dəvət edib. Siyasi dialoq təşəbbüsü də daim iqtidardan gəlib. Reallıq göstərir ki, AXCP və onun ətrafında cəmləşənlər heç vaxt siyasi dialoq çağırışını dəstəkləməyiblər. Çünki sivil siyasi münasibətlərin qurulması onların qaragüruhçu fəaliyyət prinsiplərinə tamamilə ziddir. Ona görə də Prezidentin dediyi kimi, bu qruplaşmanı indiki şəraitdə siyasi qüvvə adlandırmaq olmaz.

Azərbaycanın koronavirusa qarşı uğurla mübarizə apardığı indiki dövrdə bu antimilli bədxahlar yenidən fəallaşaraq görülən işlərə qara yaxmağa, ictimai rəyi çaşdırmağa çalışır, əvvəldə qeyd etdiyim kimi, vəfat edənlərə görə sevinirlər. Azərbaycan hökumətinin koronavirusun təsirlərinin azaldılması ilə bağlı atdığı sosial-iqtisadi addımlara onlar qara don geydirməyə cəhd göstərirlər. Müşavirədə Prezident İlham Əliyev çox haqlı olaraq belələrinin dövlətə qarşı düşmənçilik apardığını bəyan etdi.

Təbii ki, onlar heç vaxt niyyətlərinə çatmayacaq, istəkləri elə xülya olaraq qalacaq. Çünki Azərbaycan cəmiyyətinə onların hansı məzhəbə xidmət etmələri yaxşı məlumdur. Əslində, indiki situasiyada xalqa və dövlətə qənim kəsilmiş ünsürlərin yenidən canlanması keçirdikləri narahatlıqla bağlıdır. Bəli, sivil müxalifətçilikdən və demokratik mübarizədən uzaq olan dağıdıcı müxalifət təmsilçiləri ciddi sarsıntı keçirirlər. Onları bu hala salan isə inkişaf edən və yüksələn Azərbaycandır. Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan hər bir uğur onların onsuz da antimilli müstəvidə qurulmuş fəaliyyətlərini alt-üst edir, insanlara yalan sırımaq cəhdlərinin və siyasi iflasdan çıxış yollarının qarşısını alır. Eyni zamanda cənab İlham Əliyevin uğurlarının nəticəsidir ki, Qərbdə mənzilləşmiş antiazərbaycançı dairələr belə sapı özümüzdən olan bu antimilli bədxahlarla əməkdaşlıqda artıq maraqlı görünmürlər.

***Ziyafət ƏSGƏROV, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri***

# Qabaqlayıcı tədbirlər səmərə verir

*Əvvəli 1-ci səh.*

Planetin 2 083 607 sakini bu infeksiyanın daşıyıcısıdır. 510 666 nəfər isə xəstəlikdən sağalıb.

COVID-19-un ayrı-ayrı ölkələr üzrə yayılması statistikasına nəzər yetirək.

## ABŞ birinciliyi saxlayır

ABŞ koronavirusa yoluxanların və ölənlərin sayına görə dünyada birinci yerdə qalmaqda davam edir. Ölkə az qala pandemiyanın əsarəti altındadır. Burada virusa yoluxanların sayı 637 716 nəfər təşkil edir. Ölənlərin sayı isə 31 minə yaxınlaşır. Ölüm hallarından 10 899-u Nyu Yorkda qeydə alınıb. Bu şəhərdə koronavirusdan ölən polis əməkdaşlarının sayı 27 nəfərə çatıb.

Çində koronavirusa 46 yeni yoluxma halı qeydə alınıb. Son sutka ərzində ölən olmayıb, 76 nəfər sağalıb. Ölkədə koronavirusa yoluxanların 94,5 faizi sağalıb. Ümumilikdə, yoluxma hallarının sayı 82,3 mini ötüb, 3,3 mindən artıq insan ölüb.

Fransada COVID-19 ötən sutka ərzində 1,4 mindən artıq insanın canını alıb. Aprelin 15-i axşam saatları üçün ölkədə 106 206 təsdiqlənmiş koronavirusa yoluxma halı var. Ölənlərin sayı isə 17 167 nəfər təşkil edir.

İtaliyada koronavirusa yoluxanların ümumi sayı 165 min nəfərdən çoxdur. Ötən sutka ərzində 578 nəfər infeksiyanın qurbanı olub. Bununla ölənlərin sayı 21 645 nəfərə çatıb. Sağalanların sayı 962 nəfər artaraq 38 min nəfəri ötüb.

İranda daha 92 nəfər koronavirusun qurbanı olub. İnfeksiyadan ölənlərin ümumi sayı 4869-a çatıb. Daha 1606 nəfərdə koronavirus aşkarlanıb və bununla da infeksiya daşıyıcılarının sayı 77995 nəfərə yüksəlib. 52229 nəfər sağalaraq xəstəxanalardan buraxılıb.

Almaniyada son bir gündə 2866 nəfər koronavirusa yoluxub. Beləliklə, ölkədə qeydə alınan koronavirus hallarının sayı 130450 nəfərə çatıb. Ölənlərin sayı daha 315 nəfər artaraq 3569-ə yüksəlib.

İsraildə son sutkada koronavirusdan daha 14 nəfər ölüb, 391 nəfər COVID-19-a yoluxub. Bununla da yoluxanların sayı 12591-ə çatıb. İsraildə koronavirusdan ümumilikdə 140 nəfər ölüb.

Türkiyədə son 24 saat ərzində daha 115 nəfər yeni növ koronavirusdan dünyasını dəyişib. Qardaş ölkədə virus qurbanlarının sayı 1518 nəfərə çatıb. Yoluxanların ümumi sayı 69392 nəfərdir. Sağalanlar 5674 nəfərdir.

Rusiyada koronavirusa yoluxma göstəriciləri növbəti dəfə rekord vurub. Ölkədə son sutka ərzində 3448 nəfər koronavirusa yoluxub, daha 34 nəfər virusdan həyatını itirib. Bu günə qədər Rusiyada 27938 nəfər infeksiyaya yoluxub, ölənlərin sayı isə 232 nəfərə çatıb. Ümumilikdə 2304 nəfər sağalıb, 25402 nəfərin müalicəsi davam edir.

Ukraynada daha 8 nəfər koronavirusun qurbanı olub və ölənlərin sayı 116-ya yüksəlib. Ölkədə qeydə alınan koronavirus hallarının sayı 397 nəfər artaraq 4161-ə çatıb. Sağalanların sayı isə 186-dır.

Özbəkistanda daha 47 nəfərdə koronavirus aşkarlanaraq yoluxma hallarının sayı 1349-a çatıb. 4 nəfər virusun qurbanı olub.

Qırğızıstanda son sutkada 17 nəfərə koronavirus diaqnozu qoyulub. Hazırda ölkədə qeydə alınmış yoluxma hallarının sayı 466-ya çatıb. Koronavirusa yoluxmuş həkimlərin sayı isə 104-ə yüksəlib.

Qazaxıstanda koronavirus qurbanlarının sayı 17 nəfərə çatıb. Ölkədə indiyədək qeydə alınmış yoluxma hallarının sayı 1341 nəfərdir.

Ermənistanda koronavirusa yoluxanların sayı 1159, ölənlərin sayı 18-dir. 358 nəfər sağalaraq xəstəxanadan evə buraxılıb.

Gürcüstanda koronavirusa yoluxanların sayı son 24 saat ərzində 30 nəfər artaraq 336 nəfər olub. Hazırda karantində 5000 nəfər, stasionarda isə 494 nəfər var. Bu günədək ölkədə koronavirusa yoluxmuş 74 nəfər sağalıb, 3 nəfər isə dünyasını dəyişib.

## Azərbaycanda sağalma faizi yüksəkdir

Azərbaycanda aprelin 14-nə kimi təsdiq edilən yoluxma hallarının yaş qruplarına və cinsiyyətinə görə sayı məlum olub. TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı Nazirlər Kabineti yanında Operativ Qərargahın keçirdiyi mətbuat konfransında deyib ki, indiyədək Azərbaycanda koronavirusa ən çox yoluxma faktı 50-59 yaşları arasında rast gəlinib. Belə ki, bu yaş qrupunda 248 nəfər koronavirusa yoluxub. Bundan əlavə, ikinci ən çox yoluxma halı 30-39 yaşları arasında qeydə alınıb - 214 nəfər. Doqquz yaşadək uşaqlar arasında 66, 10-19 yaşları arasında 60, 20-29 yaşları arasında 175, 40-49 yaşları arasında 198, 60-69 yaşları arasında 157, 70-79 yaşları arasında 56, 80 yaş və ondan yuxarı isə 23 nəfərdə yoluxma qeydə alınıb. Ölkədə virusa yoluxanlardan 640 nəfəri qadın, 557 nəfəri isə kişidir. Ümumilikdə, indiyədək ölkəmizdə koronavirus infeksiyasının müəyyənləşdirilməsi məqsədi ilə 75 min 397 test icra olunub.

R.Bayramlı bildirib ki, hazırda Azərbaycanda koronavirusa yoluxmuş 836 nəfərin müalicəsi xüsusi rejimli xəstəxanalarda davam etdirilir. Həmin şəxslərdən 17 nəfər reanimasiyadadır, onların da 6-sı süni nəfəs aparatına qoşulub.

Sədrin sözlərinə görə, Azərbaycanda görülən tədbirlər və tibb işçilərinin fədakarlığı nəticəsində sağalma faizi bir sıra ölkələrlə müqayisədə yüksəkdir. Belə ki, hazırda Azərbaycanda koronavirusdan sağalma 25 faiz təşkil edir: “Lakin sağalmış şəxslərin yenidən koronavirusa yoluxması da mümkündür. Sadəcə onlar xəstəliyi yüngül keçirə bilərlər. Ona görə də heç kəsin arxayınlaşmaması lazımdır”.

## 22 859 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib

Dövlət koronavirusun Azərbaycanda geniş vüsət almasına imkan verməmək, infeksiyaya yoluxmanın sürətini azaltmaq, vətəndaşının sağlamlığını qorumaq üçün lazımi tədbirlər həyata keçirsə də, bəzi vətəndaşlar hələ də qaydalara riayət etmirlər. Nəticədə xüsusi karantin rejiminin tələblərini pozaraq məsuliyyətsiz davranış sərgiləyən, həmçinin icazə sistemindən sui-istifadə edən şəxslər müəyyən olunaraq barələrində qanunvericiliyə uyğun tədbirlər davam etdirilir.

COVID-19 infeksiyasının yayılmasının qarşısının alınması məqsədi ilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə, 15.04.2020-ci il saat 00:00-dan 16.04.2020-ci il 00:00-dək olan müddət ərzində respublikanın avtomobil yollarında nəqliyyat vasitələri ilə hərəkətdə olan 2923 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib.

Baş Dövlət Yol Polisi İdarəsinin məlumatına görə, ümumilikdə 01.04.2020-ci il tarixindən bu günədək respublikanın, o cümlədən paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə 22859 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.

Bundan başqa, 8103 nömrəsinə həqiqətə uyğun olmayan müraciətlər edərək epidemiya əleyhinə rejimin qaydalarını pozan 6 nəfər Lənkəran şəhər sakininin futbol oyunu təşkil etdikləri aşkarlanıb. Həmin şəxslər Lənkəran Şəhər Polis Şöbəsinə gətirilib və hər biri barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokol tərtib edilərək 100 manat məbləğində cərimə olunublar.

## “Karantin tədbirlərində laqeydliyə yol verilməməlidir”

Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov koronavirus infeksiyasının yayılması ilə bağlı ilk dəfə olaraq aprelin 12-də müsbət statistika qeydə alındığını bildirib. Həmin gün sağalma yoluxmanı üstələyib. Aprelin 14-də də müsbət nəticə əldə olunub: “Amma biz deyə bilmərik ki, belə davam edəcək. Son 5 gündə müsbət statistika mənfi statistikanı əvəzləyir. Bu vaxta qədər əksinə idi. Bu, o deməkdir ki, karantin rejiminin nəticələri artıq var. Bu durum bizi ruhlandırır ki, karantin qaydalarına əməl edək”.

İbrahim Məmmədovun sözlərinə görə, sabitləşmənin davam etməsi istiqamətin müsbətə doğru yönəlməsi deməkdir. Lakin karantin müddətinin yaxın vaxtlarda başa çatması və tədrisin bərpa olunması hələlik müzakirə mövzusu deyil. Məktəblərin başlanması yalnız karantin rejimindən çıxdıqdan sonra mümkündür: “Karantin müddətinin yaxın vaxtlarda bitməsi və tədrisin bərpa olunması hələ ki, müzakirə mövzusu deyil”.

TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı da qeyd edib ki, karantin tədbirlərini tədricən və nəzarətdə saxlamaqla yumşaltmaq olar. Karantin rejiminin tədricən yumşaldılması növbəti uzadılmadan sonra mümkündür: “Ancaq karantin rejiminə əməl edilməməsi ikinci dalğanı yarada bilər. Araşdırmaların nəticələri göstərir ki, karantin tədbirlərində laqeydliyə yol verilməməlidir. Bu müddət ərzində zəruri bütün addımlar atılıb, ancaq heç kim arxayınlaşmamalıdır. 20 apreldən sonra karantin rejimindən tədricən çıxmaqla bağlı müraciət edəcəyik. Bununla bağlı xüsusi qaydalar hazırlanır. Onlar Nazirlər Kabinetinə təqdim ediləcək və qəbul edildikdən sonra ictimaiyyətə açıqlanacaq”.

***Xəyalə MURADLI,***
***“Azərbaycan”***

# Heydər Əliyev Fondundan koronavirusla mübarizəyə dəstək

## “REACT-C19 layihəsi fondun hər zaman səhiyyəmizlə birgə olduğunu bir daha sübut edir”




## COVID-19-a qarşı REACT-C19 layihəsi

Ümumdünya Səhiyyə Təşkilatının təşəbbüsü, Heydər Əliyev Fondu, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, TƏBİB və Səhiyyə Nazirliyinin dəstəyi ilə ölkəmizdəki xəstəxanalarda COVID-19-a qarşı mübarizə tədbirləri ilə əlaqədar olaraq əsas bacarıqları gücləndirmək üçün REACT-C19 layihəsinə start verilir. Layihədə Türkiyədə çalışan 19 azərbaycanlı həkim iştirak edəcək. Layihənin məqsədi hazırda COVID-19-a yoluxmuş xəstələrin müalicə edilməsi üçün bölgələrdəki seçilmiş xəstəxanalarda virusla bağlı əsas bacarıqları sürətlə inkişaf etdirməkdir.

Layihə çərçivəsində bölgələrdə yerləşən xəstəxanalarda çeşidləmə “triaj” sisteminin tətbiqi, infeksiyaların qarşısının alınması və nəzarət, xəstəlik hallarının idarə olunması, reanimasiya sistemlərinin qurulması, xəstəxanalardakı heyətə lazımi sistemlərin yaradılması və uzunmüddətli saxlanılması ilə bağlı sürətli təlimlər keçmək, bu xəstəxanalarda yeni təlim keçmiş kadrları dəstəkləmək üçün onlayn, mobil və ya rəqəmsal texnologiyalar yaratmaq nəzərdə tutulur.

Türkiyədən gəlmiş azərbaycanlı həkimlərdən formalaşdırılmış dörd heyətin hər birində infeksiyanın qarşısının alınması və nəzarət, triaj, yoluxma hallarının idarə olunması və Ağır Kəskin Tənəffüs Sindromu (SARS) üzrə mütəxəssislər təmsil olunur. Bu həkimlər Bakıda fəaliyyət göstərən 4 tibb müəssisəsində - “Yeni klinika”, Mərkəzi Neftçilər Xəstəxanası, Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik və Cərrahiyyə klinikalarında, eləcə də bölgələrdə karantin üçün ayrılan xəstəxanalarda fəaliyyət göstərəcəklər.

Qeyd edək ki, bu mütəxəssislər Türkiyənin seçilmiş universitetlərində təlimlər keçib, sözügedən sahələr üzrə praktiki təcrübələr əldə edib və müvafiq təlimat alıblar. Bununla yanaşı, onlar dəyişikliklərin idarə olunması və streslə mübarizə ilə bağlı biliklərə də yiyələniblər.

Xəstəxana hazırlıq heyətləri seçilmiş xəstəxanaların direktorları və baş həkimlərinin rəhbərliyi altında hər xəstəxanada 2 həftə ərzində təlim keçəcəklər. Hər komanda növbəti xəstəxanada fəaliyyətə başlamazdan öncə cari xəstəxanadakı heyətə sistemi idarəetmə məsuliyyətini təhvil verəcək.

Layihə çərçivəsində tibb işçiləri üçün onlayn platforma da istifadəyə veriləcək və bu platforma vasitəsilə onlar təlimlər və təqdimatlar, mentorlardan video dərslər və statistik məlumatlar əldə edə biləcəklər.

## “Heydər Əliyev Fondu hər bir vətəndaşa lazımi yardım göstərməyə hazırdır”

“Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın tapşırığı ilə Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx əməkdaşlıq edirik. Koronavirus epidemiyası ilə mübarizənin ilk günlərindən TƏBİB və Səhiyyə Nazirliyinə dəstək göstərməyə başlamışıq”.

Bunu REACT-C19 layihəsinin təqdimatında Heydər Əliyev Fondunun Beynəlxalq Əlaqələr Departamentinin rəhbəri, millət vəkili Soltan Məmmədov bildirib. O bildirib ki, bu istiqamətdə ölkədə laboratoriya sisteminin gücləndirilməsi üçün Bakı, Cəlilabad və Gəncə şəhərlərində Almaniya istehsalı olan 4, Sumqayıt və Şəki şəhərlərində 2 tam avtomat laboratoriya qurularaq istifadəyə verilib. Yüksək keyfiyyətli müayinələrin aparılması üçün Almaniya və İngiltərə istehsalı olan test kitləri ilə təmin edilib. Xəstəxanalarda çalışan tibb personalının təhlükəsizliyini təmin etmək məqsədi ilə maska, tibbi geyim, eynək, əlcək və digər qoruyucu vasitələr alınıb. Tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi üçün süni nəfəs aparatları, tibbi monitorlar və hemofiltrasiya cihazları təmin olunub: “Fondun Prezidenti Mehriban xanımın tapşırığı ilə beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində əhalinin maarifləndirilməsi üçün birgə kommunikasiya planı hazırlanıb və bu istiqamətdə mətbuat, ictimaiyyət və dövlət qurumları ilə əlaqələndirici iş aparılır. Koronavirusla mübarizədə həkimlərimizə dəstək məqsədi ilə digər ölkələrlə təcrübə mübadiləsi üçün virtual təlimlərin təşkili və bu gün də Ümumdünya Səhiyyə Təşkilatı ilə birgə 3 ay müddətində bizim həkimlərlə birgə çalışacaq 20 nəfərdən ibarət müxtəlif ixtisaslı mütəxəssislərdən ibarət qrupun Azərbaycana səfərinin təşkil olunmasına dəstək vermişik”.

S. Məmmədov Heydər Əliyev Fondu tərəfindən ölkədə uğurla həyata keçirilən sosial siyasətə dəstək olaraq ehtiyacı olan ailələrə ərzaq dəstəyi də göstərildiyini əlavə edib: “Ölkədə fəaliyyət göstərən uşaq evləri, körpələr evi, internat məktəbləri, qocalar evi, sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisələrində tələb olunan profilaktik tədbirlər görülüb, lazımi qoruyucu vasitələr təmin olunub”.

Deputatın sözlərinə görə, Heydər Əliyev Fondu öz sosial missiyası çərçivəsində hər zaman ölkədə səhiyyənin inkişafına dəstək göstərib. Səhiyyə sahəsində illər boyu qazanılan təcrübə və beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində əldə edilən uğurlar bu mübarizədə səhiyyəmizə lazım olan dəstəyi göstərməyə imkan yaradır: “Fondun rəhbərliyinin dəstəyi ilə biz uzun illərdir ki, ÜST ilə sıx və uğurlu əməkdaşlıq edirik. Bu gün başlanmasını elan etdiyimiz bu layihə Heydər Əliyev Fondunun hər zaman səhiyyəmizlə birgə olduğunu bir daha sübut edir. Fondumuz bu çətin günlərdə 24 saat ərzində bütün səhiyyəmizə və hər bir vətəndaşımıza lazımi yardım göstərməyə hazırdır”.

# KOBİA onlayn tədbirlərə başlayıb

İqtisadiyyat Nazirliyi tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) koronavirus (COVID-19) pandemiyasından zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərə və fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi tədbirləri barədə sahibkarların məlumatlandırılması üçün onlayn maarifləndirmə tədbirlərinə başlayıb.



İlk belə onlayn tədbir pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin dövlət tərəfindən ödənilməsi mövzusuna həsr olunub. Onlayn tədbir çərçivəsində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin və KOBİA-nın nümayəndələri pandemiyadan zərər çəkmiş sahibkarlıq subyektlərinin muzdlu işçilərinə dəstək proqramı barədə məlumat verib, sahibkarları maraqlandıran sualları cavablandırıblar.

Onlayn tədbir KOBİA-nın “Facebook” səhifəsi (https://www.facebook.com/smb.gov.az) üzərindən birbaşa yayımlanıb.

Aprelin 16-sı saat 15:00-da isə koronavirus pandemiyasından zərər çəkmiş fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi barədə onlayn tədbir təşkil olunacaqdır. Sahibkarlar qeyd olunan vaxtda KOBİA-nın “Facebook” səhifəsinə qoşulmaqla onlayn tədbiri izləyə və onları maraqlandıran suallara cavab ala bilərlər.

# Zirvə toplantısı qlobal çağırışlara həmrəyliklə cavab verdi

*Əvvəli 1-ci səh.*

Dövlət başçısı koronavirus pandemiyasının qlobal təhlükə kimi qlobal cavablar tələb etdiyini diqqətə çatdırmış və həmkarları ilə Azərbaycan təcrübəsini bölüşmüşdür.

Bəzi ölkələr, beynəlxalq təşkilatlar bu bəla qarşısında aciz qalaraq özünə qapananda Prezident İlham Əliyev islahatçı və ehtiyatlı liderlərə məxsus uzaqgörənliklə çevik və zəruri qabaqlayıcı addımlar atmış, sərəncamla Nazirlər Kabineti yanında Operativ Qərargah yaratmış, həmin qərargahın qərarları ilə bütün təhsil müəssisələrində tədris prosesi mərhələli şəkildə dayandırılmış, bütün kütləvi tədbirlər təxirə salınmış və ləğv edilmişdir. Martın 14-dən xüsusi, 24-dən isə xüsusi karantin rejimi tətbiq olunmuş, şəhərlərarası nəqliyyatın və Bakı Metropoliteninin fəaliyyəti tam dayandırılmış, aprelin 5-dən bütün ölkədə hərəkət məhdudiyyəti tətbiq olunmuş, vətəndaşların yaşayış yerini tərk etməsinə müəyyən vaxt çərçivəsində SMS-lə icazə verilməyə başlanmışdır.

Həmçinin Azərbaycan koronavirusla mübarizədə özünü təcrid edən bir sıra ölkələrdən fərqli olaraq qlobal həmrəylik nümayiş etdirir. Ölkəmiz bu çərçivədə Ümumdünya Səhiyyə Təşkilatına könüllü maliyyə yardımı ayırmış, həmin qurumla donor sazişi imzalamış, eyni zamanda bir sıra ölkələrə köməyini əsirgəməmişdir.

Bu gün ölkəmizdə koronavirus xəstələri 20-dən artıq dövlət xəstəxanasında müalicə olunurlar. Prezidentin sərəncamı ilə qısa müddət ərzində 6-sı dövlət, 4-ü isə özəl sahibkarlar tərəfindən tikilməklə, hər biri 200 çarpayılıq 10 müasir modul tipli xəstəxananın istifadəyə verilməsi nəzərdə tutulur.

Dövlət başçısı videokonfransdakı çıxışında səhiyyə işçilərinə xüsusi qayğı ilə yanaşılması, koronavirus xəstələrinə xidmət göstərən həkimlərin maaşının 3, 4 və 5 misli məbləğində artırılması barədə məlumat vermiş, müxtəlif ölkələrdən təşkil olunmuş çarter reysləri vasitəsilə təxliyə edilmiş bütün vətəndaşlarımızın dövlət hesabına 4 və 5 ulduzlu mehmanxanalarda, xüsusi karantin zonalarında, birinci Avropa Oyunları zamanı açılmış Atletlər kəndində karantinə yerləşdirildiyini bildirmişdir.

Xəbər verildiyi kimi, aprel ayının əvvəlində Sumqayıtda tibbi maska istehsalı müəssisəsi fəaliyyətə başlamışdır. Bundan əlavə, ölkə iqtisadiyyatına dəyən ziyanın qarşısını almaq, makroiqtisadi və maliyyə vəziyyətini sabit saxlamaq, əhalinin sosial vəziyyətini yaxşılaşdırmaq üçün 2,5 milyard manat həcmində vəsait ayrılmış, sahibkarlara iş yerlərini ixtisar etməmələri ilə bağlı müraciət edilmişdir. Özəl sektorda çalışan 300 mindən çox işçinin əməkhaqqının əhəmiyyətli bir hissəsinin ödənilməsini dövlət öz boynuna götürmüş, həmçinin 290 mindən çox fərdi sahibkarın dövlət yardımı ilə əhatələnməsinə qərar verilmişdir. Ümumilikdə isə dövlət sektoru üzrə 900 mindən artıq, qeyri-dövlət sektoru üzrə isə 690 min işçinin əməkhaqqı saxlanılmaqla məşğulluğu təmin edilmiş, qeydiyyata düşmüş işsizlərə birdəfəlik ödəmələrə start verilmişdir. Banklar tərəfindən sahibkarlara yeni verilən kreditlərin 60 faizinə dövlət zəmanəti veriləcək və bu kreditlər üzrə faiz dərəcəsinin yarısı dövlət büdcəsinin vəsaitləri hesabına subsidiyalaşdırılacaq.

Dövlət başçısı fövqəladə Zirvə görüşünün əsas məqsədinin milli səviyyədə atılan addımların və səylərin həmrəyliyin möhkəmləndirilməsinə istiqamətləndirilməsindən ibarət olduğunu bildirmiş və qlobal pandemiya şəraitində Türk Şurasına üzv dövlətlərin özlərinə qapanmadıqlarını məxsusi qeyd edərək, bir sıra vacib məqamlara toxunmuşdur: “Ölkələrimizin iqtisadiyyatı, ticarət münasibətlərimiz və idxal-ixrac əməliyyatları üçün nəqliyyat daşımaları mühüm əhəmiyyətə malikdir. Azərbaycan Türkiyə və Mərkəzi Asiya arasında etibarlı tranzit-logistika mərkəzi kimi öz roluna məsuliyyətlə yanaşaraq, tranzit yüklərin daşınması üçün əlavə tədbirlər görmüşdür. Qarşılıqlı anlaşma və əlaqələndirmə şəraitində ölkələrimiz arasında beynəlxalq yükdaşımalar fasiləsiz olaraq həyata keçirilir. Pandemiyanın mənfi təsirlərinə baxmayaraq, 2020-ci ilin ilk üç ayı ərzində türkdilli ölkələrdən 180 min tondan artıq yük Azərbaycan vasitəsilə daşınmışdır ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 40 min ton çoxdur”.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Gebreyesus çıxışında pandemiyanın göstəricilərinin qripdən 10 dəfə yüksək, yoluxanların sayının 1,5 milyon, ölənlərin sayının isə 8100 min olduğunu bildirmişdir: “Əməkdaşlıq Şurasının üzvü olan 5 dövlət 36 min yoluxma və 750 ölüm faktı barədə məruzə ediblər. Bu, pandemiyadır. Bu, səhiyyə böhranından da artıqdır”. ÜST-ün Baş direktoru hətta zəngin dövlətlərin ciddi zərər çəkdiklərini, pandemiyaya son qoymaq üçün əməkdaşlığın və qarşılıqlı fəaliyyətin genişləndirilməsinin zəruriliyini önə çəkdi: “Siz isə bunu edə biləcəyinizi göstərdiniz. Biz hamımız birlikdə bu vəziyyətə düşmüşük. Biz hələ uzun bir yol keçməliyik. Prezident Əliyevin indicə dediyi kimi, nə lazımdır - həmrəylik və qətiyyət. Biz bu ümumi təhlükəni birlikdə dəf edəcəyik”.

Tədbirdə çıxış edən dövlət başçıları Azərbaycanın təşəbbüsünü yüksək qiymətləndirmişlər. Qırğızıstan Respublikasının Prezidenti Sooronbay Jeenbekov Türk Şurasının üzvü olan dövlətlərin - Özbəkistan, Qazaxıstan, Azərbaycan və Türkiyənin rəhbərliklərinə göstərdikləri köməyə görə təşəkkür edərək, Azərbaycanın sədrliyi müddətində iqtisadiyyat, ticarət və investisiyalar sahəsində əməkdaşlığın dərinləşəcəyinə əmin olduğunu bildirmişdir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu çətin günlərdə Türkiyənin öz qardaşlarının yanında olmağa, onlara yardım etməyə çalışdığını, əməkdaşlığın gücləndirilməsinin marağında olduğunu qeyd edərək demişdir: “Əlbəttə ki, koronavirusla savaşda qalib gələcəyik, bunun ardınca yeni dünya reallığı ilə üz-üzə qalacağıq”.

Tədbirə qatılan Macarıstanın Baş Naziri Viktor Orban da Azərbaycan tərəfindən onlara göstərilən köməyə görə dərin minnətdarlığını bildirmiş və etiraf etmişdir ki, bir çox Avropa ölkələrinin müəssisələri ağır vəziyyətdədir, işsizlik geniş miqyas alıb, sənayenin müəyyən sahələri çöküb, böhrandan sonra ölkələrin borclarının qalaqlanıb artması gözlənilir.

Zirvə görüşünə Azərbaycan Prezidenti İlham Əliyev əsl islahatçı və uzaqgörən lider kimi nikbin yekun vurmuşdur: “Bizim həmrəyliyimiz və birliyimiz nümunəvi xarakter daşıyır. Bu, onu göstərir ki, biz yalnız xoş günlərdə deyil, çətin günlərdə də bir-birimizin yanındayıq. Qlobal pandemiya şəraitində ölkələr və beynəlxalq təşkilatlar arasında həmrəylik və əməkdaşlıq böyük önəm daşıyır. Biz digər beynəlxalq təşkilatlarla əməkdaşlığa hazırıq. Hesab edirəm ki, Zirvə görüşünün Yekun Bəyannaməsi bu əməkdaşlığa əhəmiyyətli töhfədir”.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

# Azərbaycan həkimlərinə...

## Can qoyub, can yaşadan şərəfli peşə sahiblərinə

Çətin, sınaqlarla dolu ağır günlər yaşayırıq. İstər-istəməz sabahımız, gələcəyimizlə bağlı narahatçılıq içərisindəyik. Doğrudanmı mənşəyi bəlli olmayan koronavirus, COVID-19 adlı bir təhlükə insanlığı məhv etmək gücündədir?! Haradan gəlib bu bəla, göydənmi, yerdənmi? Bəlli deyil...



Hələlik cavabı məlum olmayan bu suallar arasında vurnuxuruq. İnstinktiv olaraq hər birimiz ölüm xofu, bu dünyadan vaxtsız-vədəsiz köçmə qorxusu yaşayırıq...

Amma ümidimiz də tükənməyib, əminik ki, bu sınaqdan da üzüağ çıxacağıq. Məhz onların, həyatlarını riskə ataraq koronavirusla mübarizəyə başlayan həkimlərin, tibb işçilərinin sayəsində...

Dünyanı bürüyən koronavirus pandemiyası ilə mübarizədə bu peşə sahibləri ön cərgədə dayanırlar. Gecə-gündüz gərgin əmək sərf edərək bütün xəstələrə yaşam şansı qazandırmağa çalışırlar.

Hər dəqiqə öz həyatlarının təhlükədə olduğunu bilsələr də, vəzifə borclarını yerinə yetirməkdən usanmır, insanları yaşatmaq kimi müqəddəs bir missiyanın daşıyıcıları olduqlarının fərqindədirlər...

### Həkimlər ən yüksək qiymətə layiqdirlər

Martın 28-də Prezident İlham Əliyev Bakıda "Yeni klinika" tibb müəssisəsinin açılışındakı çıxışı zamanı bu mübarizədə əsas yükün həkimlərin üzərinə düşdüyünü vurğuladı: "Mən fürsətdən istifadə edərək Azərbaycan həkimlərinə təşəkkürümü bildirmək istəyirəm. Biz onların maddi təminatının yaxşılaşdırılması üçün əlavə tədbirlər görmüşük. Bildiyiniz kimi, koronavirus xəstələrinə xidmət göstərən həkimlərin maaşı 3, 4, 5 misli məbləğində artırılıb. Bu, dövlət tərəfindən həkimlərə göstərilən diqqətin təzahürüdür. Ancaq mən bilirəm və tam əminəm ki, həkimlərin əsas motivasiyası bu deyil. Əsas odur ki, onlar öz vəzifə borcunu yerinə yetirmək istəyirlər. Onlar Hippokrat andına sadiqliklərini göstərmək istəyirlər. Onlar xalqımıza xas olan ən yüksək xüsusiyyətləri nümayiş etdirirlər və öz həyatlarını risk altına ataraq xəstələrə xidmət göstərirlər. Ona görə hər bir Azərbaycan vətəndaşı həkimlərə dəstək olmalıdır. O cümlədən koronavirusa yoluxmuş xəstələr başa düşməlidirlər ki, həkimlər belə ağır şəraitdə, sadəcə olaraq, yeriməyə çətinlik yaradan geyimlərdə, maskalarda onlara xidmət göstərirlər. Ona görə həkimlər ən yüksək qiymətə layiqdirlər. Həkimlərə həmrəylik və dəstək üçün müxtəlif aksiyalar keçirilir və keçiriləcək. Ölkəmizin müasir memarlıq rəmzlərindən biri olan "Alov qüllələri"ndə də həkimlərə bizim münasibətimiz öz əksini tapacaq".

### "Onlar bizim həmvətənlərimizin - təhlükəli virusa yoluxan insanların həyatını xilas edirlər"

Birinci vitse-prezident Mehriban Əliyeva da bu çətin günlərdə tibb işçilərinin göstərdiyi rəşadəti yüksək qiymətləndirərək onlarla bağlı paylaşım etdi: "Bir çox ölkələr kimi, Azərbaycan da fövqəladə tədbirlər görmək, sərhədləri bağlamaq, ciddi karantin rejimi tətbiq etmək məcburiyyətindədir. Görünməz təhlükə ilə mübarizə bu gün müxtəlif istiqamətlərdə aparılır. Bu mübarizə müxtəlif peşə sahibləri olan bir çox insanlardan gərgin əmək, çətin və məsuliyyətli qərarlar tələb edir. Amma ən vacib və ən mürəkkəb vəzifəni bu gün bizim tibb işçilərimiz, bizim həkimlərimiz, tibb bacılarımız, texniki heyət, alim və laborantlarımız yerinə yetirirlər. Epidemiya ilə mübarizədə ön cəbhədə olan məhz onlardır. Onların hər an qəbul etdikləri qərarlar, peşəkar bilik və bacarıqları, fədakarlıq və şəfqəti bizim əsas silahımız və ümidimizdir. Bu günlərdə biz həkim peşəsinin niyə müqəddəs missiya adlandırıldığını yenidən dərk edirik. Bu peşə həqiqətən də həmişə dərin zəka və yüksək bacarıq tələb edib. Amma bu gün bizim tibb işçilərimizdən həm də böyük şəxsi cəsarət tələb olunur. Onlar bu çətin sınaqdan şərəflə çıxırlar. Epidemiya ilə mübarizəyə tibb işçilərimizdən ibarət böyük ordu qoşulub. Onların sırasında kişilər və qadınlar, təcrübəli həkimlər və hələ çox gənc olanlar, görkəmli xadimlər və bu peşəyə yenicə qədəm qoymuş ali təhsil müəssisələrinin məzunları, tibb bacıları, texniklər və sanitarlar var. Onlar bizim həmvətənlərimizin - təhlükəli virusa yoluxan insanların həyatını xilas edirlər".

### Hər gün koronavirusun çəngindən yüzlərlə insan alırlar

Bu günümüzün qəhrəmanlarıdır onlar. Hər gün dünyada koronavirusun çəngindən çəkib aldıqları yüzlərlə insana həyat verirlər. Gecə-gündüz yorulmadan, usanmadan çarəsiz, ağrıdan, nəfəssizlikdən qıvrılan insanların qulluğunda dayanırlar...

Öz yorğunluqlarını, istirahətlərini unudaraq, ailələrinə, övladlarına olan həsrətlərini sinələrinə çəkərək şərəfinə and içdikləri bu peşəni ləyaqətlə həyata keçirirlər.

Onlar həyatlarını təhlükəyə ataraq koronavirus adlı bir bəlayla savaşırlar...

Onlar bizim yaşamağımız üçün öz canlarını heçə sayıb fədakarlıq edirlər...

Onlar insanlığın faciəsi yaşanan xəstəxanalarda ölüm-dirim savaşının mərkəzindədirlər. İnsan taleyi ilə bağlı ən ümidverici məqamların da, ən ağrılı sonucların da şahididirlər...

Azmı görürük ekranlardan koronavirus səbəbindən doğmalarından, əzizlərindən uzaqda tənha can verən insanların son anında onlara həmdəm olan həkimlərin naümid göz yaşlarını...

Azmı şahid olduq virusa yoluxanların inanılmaz çoxluğundan ağır seçim qarşısında qalan, çarəsizlikdən yaşam şansı az olanları ölümlə baş-başa buraxmağa məcbur qalan həkimlərin ürəkparçalayan hönkürtülərinə...

Bəli, bunlar reallıqdır, bu faciələr dünyanın super dövlətlərində yaşanır və nə yazıq ki, hələ də bitməyib...

Bu gün bütün dünyanın minnətdarlığı, duası məhz həkimlərə, tibb işçilərinədir. Bu gün səslənən bütün alqışlar da onların ünvanınadır...

### Minnətdarıq sizə, Azərbaycan həkimi, sevgimiz, sayğımız, dualarımız sizədir...

Qürurvericidir ki, onların cərgəsində Azərbaycan həkimləri də mübarizə aparır, xalqımızın yüzlərlə nümayəndəsinə həyat şansı tanıyırlar...

Və dövlətimizin dəstəyi, zəhmətlərinin ən ali səviyyədə təqdir edilməsi koronavirusla savaşan həkimlərimizə əlavə dəstək, ruh yüksəkliyi verir.

Biz də evdə qalaraq həkimlərə bu mübarizədə yardım etməli, yoluxmanın sayını azaldaraq işlərini yüngülləşdirməliyik. Sadəcə bir koronavirus xəstəsinin sağalmasında onlarca həkim zəhmət çəkir. Evdə qalaraq həkimlərimizi, bütün tibb işçilərimizi mənəvi ağrılardan, ruhi sarsıntılardan, ailə özləmindən, can təhlükəsindən qurtara bilərik...

Həkimlər bizim üçün ölümün mərkəzinə yollanıblar, biz də onlar üçün evdə qalmalıyıq...

Minnətdarıq sizə, Azərbaycan həkimi, sevgimiz, sayğımız, dualarımız sizədir...

Nə etsək də, nə desək də haqqınız ödənməz...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

---

AzerGold

## "AzerGold" QSC qanvermə aksiyası keçirib



"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın çağırışına və təşəbbüsünə qoşularaq qanvermə aksiyası keçirib.

"AzerGold" QSC-nin Mətbuat xidmətindən verilən məlumata görə cəmiyyətin əməkdaşları irsi qan xəstəliklərindən, xüsusilə də talassemiyadan əziyyət çəkən uşaqlara dəstək olmaq və onlar üçün tədarük olunan qan ehtiyatını artırmaq məqsədilə Milli Hematologiya və Transfuziologiya Mərkəzində könüllü olaraq qan veriblər.

Həkim hemotoloqlar tərəfindən hər bir donorun sağlamlığı əvvəlcədən müəyyən olunub və hərtərəfli tibbi müayinədən sonra donorlardan qan götürülüb. Götürülən qan ehtiyatı yoxlanılaraq talassemiya, hemofiliya, eləcə də leykoz xəstəliyindən əziyyət çəkən uşaqlar üçün istifadə olunacaq.

---

## "Azərsu" ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə su nasos aqreqatlarının satın alınması məqsədilə *açıq tender elan edir*

**Su nasos aqreqatlarının satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və satınalmaların idarə olunması departamentinin Satınalmaların təşkili şöbəsindən (əlaqələndirici şəxs: Ağaəli Mirzəyev, telefon: 431-47-67/2246/49) ala bilərlər.

**İştirak haqqı 500 manatdır.**
**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ 37 NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h : AZ 65 AİİB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *son üç il ərzində icra edilmiş ən azı üç oxşar müqavilə;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **01 iyun 2020-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə **10 iyun 2020-ci il saat 16:00-a qədər** Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və satınalmaların idarə olunması departamentinin Satınalmaların təşkili şöbəsinə təqdim etməlidirlər. Tələb olunan malların mənşə və uyğunluq sertifikatı təqdim olunmadığı halda iddiaçı tenderdən kənarlaşdırılacaq.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **11 iyun 2020-ci il saat 16:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

---

## B İ L D İ R İ Ş

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi mətbəə məhsullarının kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (012) 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 21 aprel 2020-ci il saat 15:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında qəbul olunur.

***Tender komissiyası***

---

## "Azərpoçt" MMC tabeli poçt müəssisələrinin mal-materiallarla təmin edilməsi üzrə *tender elan edir*

Tender 3 LOT üzrə keçirilir.
LOT-1: Kondisionerlərin alınması
LOT-2: Bağlama qutularının alınması
LOT-3: Reklam işlərinin alınması

Tender iştirakçılarına təklif edilir ki, http://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi:
**LOT-1: 100 AZN**
**LOT-2: 200 AZN**
**LOT-3: 250 AZN**
məbləğində pul vəsaitini aşağıdakı bank hesabına köçürməlidir:

**"Azərpoçt" MMC**
**VÖEN: 9900037711**
**Bankın adı: "Azərpoçt" MMC**
**Kodu: 690001**
**VÖEN: 9900037711**
**Müxbir hesab: AZ76NABZ01350100000000094944**
**Hesab №: AZ82AZPO99995381000420000125**
**S.W.I.F.T.Bik: AZPOAZ22**
**İştirak haqqı hər LOT üzrə ayrı-ayrılıqda ödənməlidir.**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər, təqdim olunacaq malların mənşə və uyğunluq sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi. Təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *iddiaçının tender təklifinin bank təminatı (zərflərin açıldığı gündən sonra ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **07 may 2020-ci il saat 10:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **18 may 2020-ci il saat 10:00-dək** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri 1**9 may 2020-ci il saat 10:00-da** açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar: Oktay İsmayılov - Tender komissiyasının üzvü, tel: +99412-493-56-00, faks: +99412-493-00-37.

***Tender komissiyası***

---

## AGRICULTURAL COMPETITIVENESS IMPROVEMENT PROJECT
## AZ-AACD-166952-CS-QCBS/A3/G-4
## Selection of Consultant for Design and development of Animal Identification and Registration System
## Amendment No1 to REOI

**Notification 1**

**Original requirement:**
*In case of CV or Consortium- Lead Partner must have at least one successfully completed assignment with amount not less than 1 (one) million USD in the animal identification and registration field; other Partner(s) should have experience in development of any registration systems with contract amount not less than 500,000 USD.*

**Amended requirement:**
*In case of CV or Consortium -* ***One (Any) Partner*** *must have at least one successfully completed assignment with amount not less than 1 (one) million USD in the animal identification and registration field;* ***other Partner(s) (in case of several Partners, each Partner)*** *should have experience in development of any registration system with contract amount not less than 500,000 USD.*

***Note: Applicants should clearly understand that, all CV members shall be yointly and severally liable for the entire Contract and will carry equal responsibility during whole implementation period.***

**Notification 2**

Final date for submission of EOIs is extended from:
**April 21, 2020; local time 17:00.**
To:
**April 28, 2020; local time 17:00.**
**Other notifications:**
Except the above-mentioned issues, all other conditions of the Original REOI shall be in a same force and remain unchanged.
Hard copy of Expression of interest in 2 copies must be delivered to the address below in person by April 21, 2020 local time 17:00.
Attention: Mr. Anar Azimov
Address: 25 E, Nobel avenue, Baku White Business center
Floor/ Room number: 3rd floor room
City: Baku
ZIP Code: AZ1025
Country: Azerbaiyan
Telephone: (+99412)525 01 17
Facsimile number: N/A

**Note: Due to current restrictions in the Republic of Azerbaiyan, related to COVID -19, electronic submission of EOIs is allowed. Electronic EOIs must be delivered in due time to the address below:**
**anarazim@gmail.com; a.azimov@akia.gov.az; gunelsafaraliyeva@gmailcom, nargiz.acip@gmail.com**

# B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən "Azərbaycan" qəzetinin 06.03.2020-ci il tarixli nömrəsində dərc edilmiş və dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə keçirilmiş aşağıdakı satınalmalara dair tender proseduru Tender komissiyasının 14 aprel 2020-ci il tarixli qərarına əsasən "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir:

- Azərbaycan Respublikası Mərkəzi Bankının mərkəzi ofisinin və ərazi idarələrinin inzibati binalarında quraşdırılmış yanğınsöndürmə qurğularına, sistem və avadanlıqlarına texniki xidmətin satın alınması;
- Azərbaycan Respublikası Mərkəzi Bankının mərkəzi ofisinin və ərazi idarələrinin inzibati binalarında istismar olunan isitmə-soyutma-havalandırma, su-kanal sistem və avadanlıqlarına texniki xidmətin satın alınması;
- Azərbaycan Respublikası Mərkəzi Bankının mərkəzi ofisinin və ərazi idarələrinin inzibati binalarında quraşdırılmış elektrik avadanlıqlarına texniki xidmətin satın alınması;
- Azərbaycan Respublikası Mərkəzi Bankının mərkəzi ofisinin və Bakı şəhəri Ə.Əliyev küçəsi 10 ünvanında yerləşən inzibati binasında təmir-bərpa işlərinin satın alınması;
- Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün korporativ stil mallarının satın alınması.

*Tender komissiyası*

# Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

## *açıq tender elan edir*

LOT 1 - Bakı şəhərində konfranslar keçirilməsi

Tender iştirakçılarına təklif olunur ki, dövlət satınalmalarının **https://www.etender.gov.az** vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 100 manat**

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edə bilərlər.

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

| | |
|---|---|
| **VÖEN:** | **1700272511** |
| **Hesab:** | **AZ88CTRE00000000000002308301** |
| **VÖEN:** | **1401555071** |
| **Bank:** | **AZƏRBAYCAN RESPUBLİKASININ MALİYYƏ NAZİRLİYİNİN DÖVLƏT XƏZİNƏDARLIĞI AGENTLİYİ** |
| **Kodu:** | **210005** |
| **M/H:** | **AZ41NABZ01360100000000003944** |
| **S.W.İ.F.T:** | **CTREAZ22** |

**Büdcə təsnifat kodu: 142330**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
- *rekvizitlər;*
- *qeydiyyatdan keçdiyi ölkə;*
- *nizamnamə;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*

İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 05 may 2020-ci il saat 14:00-a qədər, tender təklifi və bank təminatını isə 15 may 2020-ci il saat 12:00-a qədər Portal vasitəsilə elektron təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 15 may 2020-ci il saat 14:00-da Portal vasitəsilə onlayn rejimdə açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

*Tender komissiyası*

# Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti

## *açıq tender elan edir*

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti dərman, sarğı ləvazimatları və materiallarının satın alınması üzrə açıq tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı:** **300 (üç yüz) manat**
**Satınalan təşkilat:** **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti**

| | |
|---|---|
| **VÖEN:** | **1003853391** |
| **Bank:** | **Dövlət Xəzinədarlığı Agentliyi** |
| **KOD:** | **210005** |
| **MÜXBİR HESABI:** | **AZ41NABZ01360100000000003944** |
| **VÖEN:** | **1401555071** |
| **SWIFT** | **BIK CTREAZ22** |
| **H/HESABI:** | **AZ41CTRE00000000000002947601** |

**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **07.05.2020-ci il saat 15:00-a** qədər və tender təklifini **18.05.2020-ci il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **19.05.2020-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

*Tender komissiyası*

# Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələrinin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanmasının satın alınması ilə bağlı

## *açıq tender elan edir*

Tender 6 (altı) LOT üzrə keçirilir:

LOT-1 Kürdəmir şəhər 5 nömrəli tam orta məktəbi üçün 960 şagird yerlik yeni binanın tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanması

LOT-2 Yevlax şəhər 5 nömrəli 960 şagird yerlik tam orta məktəbin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanması

LOT-3 Şəmkir şəhərində 1600 şagird yerlik yeni tam orta məktəbin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanması

LOT-4 Goranboy rayonu, Dəliməmədli şəhərində 960 şagird yerlik yeni tam orta məktəbin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanması

LOT-5 Ağstafa rayonu, Sadıqlı kəndində 360 şagird yerlik yeni tam orta məktəbin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanması

LOT-6 Şabran rayonu, Uzunboyad kənd 264 şagird yerlik tam orta məktəbin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanması

Tender iştirakçılarına təklif edilir ki, www.etender.gov.az dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar hər LOT üzrə 50 (əlli) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

| | |
|---|---|
| **Bankın adı:** | **"Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı** |
| **Kod:** | **805603** |
| **VÖEN:** | **9900001881** |
| **M/h:** | **AZ03NABZ01350100000000002944** |
| **S.W.I.F.T.** | **İBAZAZ 2X** |
| **H/h:** | **AZ88IBAZ38030019441856517211** |
| **VÖEN:** | **1500016711** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıın müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **08 may 2020-ci il saat 11:00-a** qədər, tender təklifi ilə bank təminatı sənədlərini isə **19 may 2020-ci il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **20 may 2020-ci il saat 11:00-da** elektron Portal vasitəsilə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

*Tender komissiyası*

# Beynəlxalq aləm

## Almaniyada kiçik mağazaların açılmasına icazə verildi



Almaniyada gələn bazar ertəsindən etibarən ticarət sahəsi 800 kvadratmetrədək olan mağazaların işləməsinə icazə veriləcək. Müvafiq qərar Federal Kansler Angela Merkelin vilayətlərin Baş nazirləri ilə keçirdiyi müşavirənin yekunlarına görə qəbul olunmuşdur.

Açılan mağazalar öz binalarında gigiyena qaydalarına riayət olunmasını təmin etməli və alıcıların toplaşmasına imkan verməməlidir. Sahəsindən asılı olmayaraq, avtomobil salonları, kitab və velosiped mağazaları açıla bilər. Həmçinin muzeylərin, kitabxana və arxivlərin, zoopark və nəbatat bağlarının işləməsinə icazə verilir.

Bu, ölkədə karantin tədbirlərinin yumşaldılması istiqamətində atılan ilk addımdır. Eyni zamanda kafe, restoran və barlar bağlı olaraq qalır. Kilsə, məscid və sinaqoqlarda yığıncaq keçirmək hələ də qadağandır. Avqustun 31-dək konsert və digər kütləvi tədbirlər təşkil edilməyəcək.

Gələn ayın 4-dən etibarən bərbərxanalar açıla bilər. Şagirdlərin məktəbə qayıtması mayın 4-dən başlayaraq tədricən təmin edilməlidir. Dərsə ilk növbədə buraxılış sinifləri başlayacaq.

## Fransanın təyyarədaşıyan gəmisində yüzlərlə adam koronavirusa yoluxub



Fransa hərbi donanmasının yeganə təyyarədaşıyan gəmisi olan "Şarl de Qoll"da 700-ə yaxın dənizçi koronavirusa yoluxmuşdur. Bu barədə Fransa Müdafiə Nazirliyi məlumat vermişdir.

Ümumilikdə 1767 dənizçi testdən keçirilmiş, 668 nəfərdə koronavirus aşkar edilmişdir. Testlərin üçdəbirinin nəticələri hələ alınmamışdır və ona görə da sayın artacağı ehtimal olunur. Nazirliyin verdiyi məlumata görə, hazırda 31 nəfər xəstəxanadadır. "Şarl de Qoll" Fransa qoşunlarının Suriya və İraqda keçirdiyi hərbi əməliyyata dəstək vermək üçün yanvarın 21-də Tulon limanından çıxmış, sonra təlimlərdə iştirak etmək üçün Atlantik okeanı və Baltik dənizinə üz tutmuşdur. Ötən bazar günü gəmi göyərtəsində koronavirus infeksiyası aşkarlandığından iki həftə tez Tulona qayıtmışdır.

Hazırda təyyarədaşıyan gəminin dənizçiləri hərbi bazada təcrid olunmuşlar. Müdafiə Nazirliyi onların koronavirusa yoluxması ilə əlaqədar təhqiqat aparır.

## "Eurovision 2020" konsert zalı xəstəxanaya çevrildi




Gələn ay "Eurovision 2020" müsabiqəsinin keçirilməli olduğu Rotterdam "Ahoy" mədəniyyət mərkəzi COVID-19 xəstələrini qəbul etmək üçün tibb mərkəzinə çevrilmişdir. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Adətən konsert, sərgi və yarmarka keçirmək üçün istifadə olunan zalda 680 xəstəxana çarpayısı qoyulacaq. Onların 80-i artıq quraşdırılmışdır. Mərkəz gələn bazar ertəsi xəstələri qəbul etməyə başlayacaq.

Hollandiyalı ifaçı Dunkan Lourens Təl-Əvivdə "Eurovision 2019" mahnı müsabiqəsində qalib gəldikdən sonra "Ahoy" mədəniyyət mərkəzi "Eurovision 2020" yarışını keçirmək üçün seçilmişdi. Ötən ay koronavirus pandemiyası ilə əlaqədar müsabiqəni ləğv etmək qərara alınmışdır.

## Liviyada komendant saatı tətbiq olundu



Liviya milli barışıq hökuməti yeni tip koronavirusun pandemiyası ilə mübarizə tədbirləri çərçivəsində ölkədə komendant saatı tətbiq etmişdir. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Komendant saatı bu gün qüvvəyə minmişdir və 10 gün davam edəcək. Vətəndaşların saat 08:00-dan 14:00-dək evdən çıxmasına icazə veriləcək. Özü də bayıra çıxan şəxs mütləq maska geyməli, piyada hərəkət etməli və tək olmalıdır.

Qadağa təcili yardım maşınlarına, çörəkxanalara, bəzi mağazalara və avtomobillərə şamil olunmur. Komendant saatı çərçivəsində müəyyən istisnalarla tərəvəz və ət bazarları bağlanacaq.

Səhiyyə naziri Uhmid ben Ömər qeyd etmişdir ki, vətəndaşlar koronavirus pandemiyasının doğura biləcəyi təhlükəni hiss etmirlər və ona görə də evdən çıxıb bayırda toplaşırlar.

# B İ L D İ R İ Ş

"Bakı Telefon Rabitəsi" MMC tərəfindən 03.03.2020-ci il tarixdə elan edilmiş avtonəqliyyat vasitələrinə texniki xidmət, eləcə də sürtkü materiallarının və ehtiyat hissələrinin dəyişdirilməsi və təmiri xidmətlərinin satın alınması üzrə keçirilən tender "Dövlət satınalmaları haqqında" qanunun 50-4.2-ci maddəsinə əsasən elektron satınalmada iştirak etmək üçün qeydiyyatdan keçən malgöndərənlərin (podratçıların) yetərli sayı olmadığı üçün ləğv edilir.

*Tender komissiyası*

# B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Mərkəzi Bankında informasiya təhlükəsizliyi lisenziyalarının, habelə istismarda olan təhlükəsizlik avadanlıqlarına texniki dəstək xidmətinin satın alınması ilə bağlı "Azərbaycan" qəzetinin 26 fevral 2020-ci il tarixli nömrəsində elan edilmiş və elektron satınalma prosedurları çərçivəsində keçirilmiş açıq tender üzrə Tender komissiyasının 03 aprel 2020-ci il tarixli qərarına əsasən "SMARTİT" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi Mətbuat Şurası İdarə Heyətinin sədr müavini Müşfiq Ələsgərliyə atası

**MƏŞİ KİŞİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 7360
Sifariş 931
Qiyməti 40 qəpik